## AZƏRBAYCAN DÜNYANIN ƏN ÇOX İSLAHAT APARAN ÖLKƏSİDİR

Son illərdə müstəqil Azərbaycanın həyatı dünyadakı yeni trendlər və ölkəmizin güclü potensialı nəzərə alınmaqla həyata keçirilən dərinməzmunlu islahatlarla səciyyələnir. Prezident İlham Əliyevin siyasi iradəsi ilə aparılan islahatlar respublikada davamlı sosial-iqtisadi inkişafı, o cümlədən də qeyri-neft iqtisadiyyatında, özəl sektorda istehsal imkanlarının genişlənməsini təmin edib. Əlamətdar haldır ki, respublikamızın nümunəvi inkişaf modeli bütün dünyada böyük diqqətlə izlənilir. Son vaxtlarda ayrı-ayrı nüfuzlu reytinq agentlikləri...



Bax səh. 5

## AZƏRBAYCANDA MİLLİ MƏDƏNİYYƏTƏ, ƏDƏBİ İRSƏ DAİM YÜKSƏK SƏVİYYƏDƏ QAYĞI GÖSTƏRİLİR

Məlum olduğu kimi, son zamanlar kütləvi informasiya vasitələrində 1938-ci ildə repressiya qurbanı olmuş və güllələnmiş şair Mikayıl Müşfiqin qalıqlarının tapılması ilə bağlı xəbərlər yayılıb. Hazırda tapılan qalıqların Azərbaycan ədəbiyyatında özünəməxsus yerə malik, lirik şeirləri ilə qəlblərdə yaşayan Mikayıl Müşfiqə aid olub-olmaması ilə bağlı müzakirələr aparılır. Məsələ ilə bağlı açıqlama verən...



Bax səh. 6



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 03 noyabr 2018-ci il, şənbə / № 209 (5336). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# 2018-ci ildə Azərbaycanın tərəfdaş ölkələrlə əlaqələri yeni mərhələyə qədəm qoyub



*Prezident İlham Əliyev: Ölkəmiz beynəlxalq müstəvidə böyük hörmət qazanıb və bizimlə əməkdaşlıq edən ölkələrin sayı gündən-günə artır*



## Prezidentin iş günü

Prezident İlham Əliyev Vaqif Qulam oğlu Behbudovun "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

### Milli Onkologiya Mərkəzinin yeni korpusunda 2 ədəd "VitalBeam(tm)" xətti sürətləndirici sistemi istifadəyə verilib

Milli Onkologiya Mərkəzinin (MOM) şüa müalicəsi şöbəsində əlavə olaraq ikimərtəbəli yeni korpus tikilib və dünyanın tibbi qurğular və xərçəng xəstəliyinin müalicəsi üçün...



Bax səh. 5

### MDB ölkələrinin hökumət başçıları Qazaxıstan Prezidenti Nursultan Nazarbayevlə görüşüblər

Astanada MDB Hökumət Başçıları Şurasının iclasında iştirak edən nümayəndə heyətlərinin başçıları noyabrın 2-də Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevlə görüşüblər. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov görüşdə iştirak edib. Prezident Nursultan Nazarbayev MDB üzv ölkələrinin əməkdaşlığının möhkəmləndirilməsində Şuranın iclasının xüsusi əhəmiyyətini vurğulayıb və bildirib ki, bu tədbir qarşılıqlı faydalı əlaqələrin daha da inkişafına kömək edəcək...

Bax səh. 2



## ASTANADA MDB HÖKUMƏT BAŞÇILARI ŞURASININ İCLASI KEÇİRİLİB

Noyabrın 2-də Qazaxıstanın paytaxtı Astanada MDB Hökumət Başçıları Şurasının növbəti iclası keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədovun rəhbərliyi ilə nümayəndə heyəti iclasda iştirak edib...

Bax səh. 3

## GƏNCƏ-QAZAX İQTİSADİ RAYONU ÜZRƏ ABADLIQ-QURUCULUQ İŞLƏRİ UĞURLA DAVAM ETDİRİLİR

Son illərdə Azərbaycanın bütün bölgələrində müasir infrastruktur obyektlərinin yaradılması, abadlıq-quruculuq işləri geniş vüsət alıb. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində ölkə miqyasında bəhs olunan istiqamətlərdə yeni layihələr reallaşdırılır. Nəticədə, paytaxt Bakı, digər iri şəhərlərlə yanaşı, bölgələrin də elektrik enerjisi, "mavi yanacaq", içməli su təminatı əhəmiyyətli dərəcədə yaxşılaşıb. Regionlarda magistral, eləcə də kənd və qəsəbələri birləşdirən yolların yüksək səviyyədə yenidən qurulması, yeni səhiyyə, təhsil müəssisələrinin istifadəyə verilməsi, genişmiqyaslı quruculuq-abadlıq işlərinin həyata keçirilməsi insanlarda böyük məmnunluq hissi yaradır. Ölkə üzrə infrastrukturun yenilənməsi, abadlıq-quruculuq işləri bu ilin 9 ayında da uğurla davam etdirilib. Yeri gəlmişkən, Gəncə-Qazax iqtisadi rayonuna daxil olan bölgələrdə əldə olunmuş nəticələr bunu təsdiqləyir...

Bax səh. 8



## MİLLİ MƏCLİSİN NÖVBƏTİ İCLASI KEÇİRİLİB

Noyabrın 2-də Milli Məclisin növbəti plenar iclası keçirilib. Milli Məclisin sədri Oqtay Əsədov iclası açıq elan edib və gündəlik barədə məlumat verib. Sonra parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Azərbaycan Ali Məhkəməsinə, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinə, Bakı, Gəncə, Sumqayıt, Şirvan və...

Bax səh. 4

### Paraqvayın SNT televiziya kanalı Azərbaycan haqqında reportaj yayımlayıb

Paraqvayın geniş tamaşaçı auditoriyasına malik olan SNT televiziya kanalı Azərbaycan haqqında reportaj yayımlayıb. AZƏRTAC xəbər verir ki, reportajda ispandilli tamaşaçılara Azərbaycan haqqında ətraflı məlumat verilir...




Bax səh. 3

### Son illər Azərbaycanda qeyri-neft sektorunun sürətli inkişafı məmnunluq doğurur

...Ümumiyyətlə, müstəqil Azərbaycan ötən dövr ərzində böyük inkişaf yolu keçib. Ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş inkişaf strategiyası Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Son illər Azərbaycanda aparılan islahatlar daha da dərinləşib və mahiyyətcə yeni xarakter kəsb edib. Aparılan iqtisadi islahatlar nəticəsində ölkədə maliyyə sabitliyi və iqtisadi artım bərpa olunub, bir çox sahələrdə, xüsusilə kənd təsərrüfatı, qeyri-neft sənayesi və digər sektorlarda əhəmiyyətli irəliləyiş əldə edilib...

Bax səh. 6

### Göyçayda "Nar bitkisi və məhsullarının multidissiplinar problemləri" mövzusunda respublika elmi-praktik konfransı keçirilib

Noyabrın 2-də Göyçay şəhərində Azərbaycan Milli Elmlər Akademiyasının, rayon icra hakimiyyətinin...



Bax səh. 4

### Azərbaycan və Qazaxıstan Mərkəzi Seçki komissiyaları arasında Anlaşma Memorandumu imzalanıb

Noyabrın 1-2-də Qazaxıstanın paytaxtı Astanada keçirilən "Seçkilərdə müasir texnologiyaların rolu: standartların təkmilləşdirilməsi, ictimai etimad"...




Bax səh. 6

### Kocaelinin Körfəz şəhər bələdiyyəsinin nümayəndə heyəti AZƏRTAC-da olub

Azərbaycanda səfərdə olan Türkiyənin Kocaeli vilayətinin Körfəz şəhər bələdiyyəsinin sədri İsmayıl Baranın rəhbərlik etdiyi nümayəndə heyəti ilə noyabrın 2-də...



Bax səh. 6

### *Məhəmməd Cavad Zərif:* Regionda təhlükəsizliyin davamlılığı üçün İran, Azərbaycan və Türkiyə əməkdaşlığı davam etdirəcəklər

Regionda təhlükəsizliyin davamlı xarakter alması üçün İran, Azərbaycan və Türkiyə qarşılıqlı...



Bax səh. 5

# 2018-ci ildə Azərbaycanın tərəfdaş ölkələrlə əlaqələri yeni mərhələyə qədəm qoyub

## *__Prezident İlham Əliyev:__ Ölkəmiz beynəlxalq müstəvidə böyük hörmət qazanıb və bizimlə əməkdaşlıq edən ölkələrin sayı gündən-günə artır*

*Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycan çoxvektorlu, tarazlaşdırılmış və milli maraqlara əsaslanan xarici siyasət kursu həyata keçirir. Bunun qanunauyğun nəticəsi kimi, respublikamızın beynəlxalq mövqeyi mütəmadi olaraq möhkəmlənir, Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır. Ölkəmiz xarici siyasətində milli maraqlar və beynəlxalq hüquq normaları ilə yanaşı, sülh, sabitlik, inkişaf, qarşılıqlı faydalı əməkdaşlıq kimi meyarları da əsas götürür, beynəlxalq münasibətlər sisteminə yeni və daha mütərəqqi dəyərlər təqdim edir. Bu isə daha çox regional və qlobal inkişafa, sabitliyə, təhlükəsizliyə töhfə kimi xarakterizə edilir. Digər tərəfdən, milli maraqlara uyğun olaraq reallaşdırılan xarici siyasət sayəsində ölkəmiz həm ikitərəfli münasibətlər, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri formalaşdırıb. Hazırda Azərbaycan beynəlxalq münasibətlər sisteminin nüfuz və güc iyerarxiyasında mütəmadi yüksəlişə malikdir.*



Ümumiyyətlə, Azərbaycanın xarici siyasəti dinamik və praqmatik xarakter daşıyır, ölkəmizin milli maraqlarının təmin olunmasına xidmət edir. Məhz 2018-ci ilin ötən dövrü ərzində müşahidə edilən proseslər və intensiv diplomatik təmaslar da bunu bariz şəkildə göstərir. 2018-ci ilin doqquz ayı ərzində Prezident İlham Əliyev 12 xarici səfər edib, 15 dövlət və hökumət başçısı isə Azərbaycana səfərə gəlib. Şübhəsiz ki, bu səfərlər nəticəsində dövlətlər arasında əldə olunmuş razılaşmalar Azərbaycanın strateji tərəfdaşlıq əlaqələrinin güclənməsinə, dost və tərəfdaşlarının sayının artmasına xidmət edir.

### CƏNUBİ QAFQAZIN LİDER DÖVLƏTİ OLAN AZƏRBAYCAN MÜASİR BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ ETİBARLI TƏRƏFDAŞ KİMİ TANINIR

Xüsusi olaraq vurğulamaq gərəkdir ki, Azərbaycan regionda sabitləşdirici aktor kimi fəaliyyət göstərməklə bölgədə və beynəlxalq səviyyədə əməkdaşlığa, təhlükəsizliyə mühüm töhfələr verir. Buna görə də Azərbaycan hazırda regional güc mərkəzi kimi bölgədə sülhün və təhlükəsizliyin təmin olunması üçün dayaq nöqtəsi, ən perspektivli tərəfdaş hesab edilir. Prezident İlham Əliyev Azərbaycanın dövlət siyasətini dünya dövlətlərinin siyasəti ilə uzlaşdırır, konstruktiv, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan, regional və qlobal miqyasda sabitliyə xidmət edən siyasi xətt yürüdür. Belə olan halda, Azərbaycanla qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan tərəfdaşlıq münasibətləri beynəlxalq münasibətlər sisteminin aktorları olan milli dövlətlər üçün strateji əhəmiyyət daşıyır. Təsadüfi deyil ki, bu gün dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı Cənubi Qafqazın təhlükəsizlik qarantı və inkişaf mənbəyi adlandırırlar. Aparıcı dövlətlər Azərbaycanın siyasi əhəmiyyətini yüksək qiymətləndirir, ölkəmizin Cənubi Qafqaz və Xəzər dənizi regionunda əvəzolunmaz tərəfdaş kimi böyük dəyərə malik olduğunu ifadə edirlər.

Bir sözlə, uğurlu və praqmatik xarici siyasət Azərbaycanın beynəlxalq mövqeyinin mütəmadi olaraq möhkəmlənməsini təmin edib, respublikamızla əməkdaşlıq etmək istəyən ölkələrin sayı mütəmadi olaraq artır. Yeri gəlmişkən, Prezident İlham Əliyev VI Bakı Beynəlxalq Humanitar Forumundakı nitqində bu məqamlara toxunaraq deyib: **"Ölkəmiz beynəlxalq müstəvidə böyük hörmət qazanıb və bizimlə əməkdaşlıq edən ölkələrin sayı gündən-günə artır. Düz 7 il bundan əvvəl - 2011-ci il oktyabrın sonlarında Azərbaycan ilk dəfə olaraq BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir. Bu, bizim böyük siyasi və diplomatik uğurumuzdur, qələbəmizdir. Ən önəmlisi odur ki, 155 ölkə Azərbaycanın namizədliyini dəstəkləmişdir. Yəni, bu, onu göstərir ki, dünya birliyinin mütləq əksəriyyəti Azərbaycanı dəstəkləyir, Azərbaycanda görülən işlərə yüksək qiymət verir, Azərbaycanı etibarlı tərəfdaş və dost ölkə kimi tanıyır".**

Bütövlükdə, Azərbaycanın xarici siyasəti həyata keçirilən səmərəli daxili siyasətə uyğundur, başqa sözlə, bu kursu tamamlayır. Bu isə Azərbaycanın beynəlxalq mövqeyinin möhkəmlənməsinə, əməkdaşlığa əsaslanan tərəfdaşlıq münasibətlərinin inkişafına təkan verir, eyni zamanda, perspektiv nailiyyətlər üçün strateji zəmin rolunu oynayır.

### AZƏRBAYCAN İŞĞALÇI ERMƏNİSTAN İSTİSNA OLMAQLA QONŞU DÖVLƏTLƏRLƏ MÜXTƏLİF SAHƏLƏRDƏ SIX ƏMƏKDAŞLIĞA VƏ YÜKSƏK SƏVİYYƏLİ ƏLAQƏLƏRƏ MALİKDİR

Azərbaycanın beynəlxalq mövqeyinin möhkəmlənməsini şərtləndirən strateji əhəmiyyətli amillərdən biri ölkəmizin ikitərəfli münasibətləri uğurla davam və inkişaf etdirməsidir. Regionda sabitləşdirici aktor olan, bölgədə təhlükəsizlik və əməkdaşlığa müstəsna töhfələr verən Azərbaycan işğalçı Ermənistan istisna olmaqla qonşu dövlətlərlə də sıx əməkdaşlığa və yüksək səviyyəli, qarşılıqlı faydalı əlaqələrə malikdir. Bu isə, şübhəsiz ki, regionda sabitliyin, təhlükəsizliyin möhkəmlənməsinə və səmərəli əməkdaşlığın inkişafına xidmət göstərir. Dövlətimizin başçısının VI Bakı Beynəlxalq Humanitar Forumundakı nitqində qeyd etdiyi kimi: **"Hesab edirəm ki, xarici siyasətlə bağlı apardığımız işlər gözəl nəticələrə gətirib çıxarır. İlk növbədə, biz qonşu ölkələrlə çox səmimi, mehriban qonşuluq, dostluq münasibətləri qura bilmişik. Hər bir ölkə üçün onun qonşuları ilə münasibətlər xüsusi əhəmiyyət kəsb edir. Məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, qonşu dövlətlərlə, - təbii ki, Ermənistan istisna olmaqla, - bizim münasibətlərimiz çox yüksək səviyyədədir, həm siyasi, iqtisadi, bütün başqa sahələrdə, o cümlədən humanitar əməkdaşlıq sahəsində".**

Ümumiyyətlə, Azərbaycanın xarici siyasət kursunda region ölkələri ilə əməkdaşlığın dərinləşdirilməsi xüsusi yer tutur. Bu kontekstdə bir sıra məqamlara nəzər salmaq məqsədəmüvafiqdir. Əvvəla qeyd edək ki, qonşu dövlətlər olan Azərbaycanla Gürcüstan müxtəlif sahələrdə əməkdaşlıq əlaqələrini uğurla davam etdirirlər. Gürcüstan regionda respublikamızın moderatorluğu ilə reallaşdırılan, mühüm strateji əhəmiyyətə malik olan enerji və nəqliyyat layihələrində yer alır. Azərbaycan Gürcüstana sərmayə qoyan xarici ölkələrin arasında birinci yeri tutur.

Türkiyə-Azərbaycan əlaqələri isə ən yüksək səviyyədədir. Türkiyə və Azərbaycan dünyada bir-birinə ən yaxın olan ölkələrdir. İki ölkənin birlikdə həyata keçirdiyi layihələr həm hər iki tərəf, həm bölgə, Avrasiya, həm də bütövlükdə dünya üçün mühüm önəm kəsb edir. Dövlətlərimizin birgə səylərlə güclü siyasi iradə nümayiş etdirərək Avrasiyanın enerji və nəqliyyat xəritəsini yenidən cızması reallıqdır. Cari ildə TANAP-ın istifadəyə verilməsi, "Star" neft emalı zavodu kimi nəhəng müəssisənin işə salınması hər iki ölkənin gücünün, eyni zamanda, Azərbaycan-Türkiyə qardaşlığının və dostluğunun daha bir göstəricisidir.

Çoxşaxəli səciyyə daşıyan Azərbaycan-Rusiya əlaqələri isə mütəmadi olaraq inkişaf edir. Cari ilin sentyabrında Azərbaycan Prezidentinin Rusiyaya və bu ölkənin dövlət başçısının respublikamıza səfərləri də ikitərəfli münasibətlərin inkişafı kontekstində müstəsna əhəmiyyətə malikdir. Bu səfərlər də bir daha təsdiq edir ki, Rusiya ilə Azərbaycanı möhkəm dostluq və əməkdaşlıq ənənələri bağlayır, iki ölkə arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsindədir. Ümumiyyətlə, Azərbaycan və Rusiya prezidentlərinin müntəzəm xarakter daşıyan görüşləri iki ölkə arasında münasibətlərin, eləcə də regional əməkdaşlığın daha da dərinləşməsinə mühüm töhfələr verir. Bütövlükdə, Rusiya-Azərbaycan münasibətləri qarşılıqlı faydalı əməkdaşlığa əsaslanır və hər iki ölkənin milli maraqlarına cavab verir.

Azərbaycan-İran münasibətləri də uğurlu regional əməkdaşlıq və müsbət qonşuluq nümunəsidir. Dərin təməllərə və tarixi köklərə söykənən, ikitərəfli və çoxşaxəli qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan tərəfdaşlıq münasibətləri dinamik xarakter daşıyır. Qarşılıqlı səfər və görüşlər isə iki ölkə arasındakı münasibətlərin inkişafına əhəmiyyətli töhfələr verir. Xüsusilə də dövlət başçılarının görüşləri ikitərəfli münasibətlərin və əməkdaşlığın dərinləşdirilməsi baxımından müstəsna əhəmiyyət kəsb edir.

Qlobal əhəmiyyətli transmilli layihələrin təşəbbüskarı və onların reallaşmasında lider mövqeyə malik Azərbaycan regionda ikitərəfli və üçtərəfli əməkdaşlıq formatlarının da əsas təşəbbüskarı və aparıcı fiqurudur. Müxtəlif regional əməkdaşlıq formatları məhz Azərbaycanın təşəbbüsü ilə yaranıb və olduqca səmərəli fəaliyyət göstərirlər. Ölkəmiz hazırda regionda sabitləşdirici aktor kimi çıxış edir.

Ekspertlər Azərbaycanın iştirakı ilə keçirilən üçtərəfli görüşlərin regional əməkdaşlığın dərinləşməsi baxımından əhəmiyyətini xüsusi olaraq diqqətə çatdırırlar. Oktyabrın 30-da İstanbulda Azərbaycan, Türkiyə və İran xarici işlər nazirlərinin VI üçtərəfli görüşünün keçirilməsi də bu baxımdan mühüm əhəmiyyətə malikdir. Üçtərəfli görüş çərçivəsində regional əməkdaşlığın ümumi maraqlar üzrə inkişaf perspektivləri, regional sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, həmçinin əvvəlki görüşlərdə qəbul olunan qərarların icra vəziyyətinə dair səmərəli fikir mübadiləsi aparılıb. Nazirlər ifadə ediblər ki, tərəflər üçtərəfli əməkdaşlığın genişlənməsi, ortaq maraqların qorunması, yeni-yeni layihələr sayəsində regionun inkişafına töhfələr verməkdə maraqlıdır. Görüşdə qəbul edilən İstanbul Bəyannaməsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn normalarına əsasən, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasının vacibliyi, eləcə də üç ölkə arasında əməkdaşlıq əlaqələrinin genişlənməsinə dair yeni yolların axtarılması və digər məsələlər əksini tapıb.

Bütövlükdə, həyata keçirilən səmərəli xarici siyasət kursunun qanunauyğun nəticəsi kimi, Azərbaycanın beynəlxalq mövqeyi mütəmadi olaraq möhkəmlənir, bu isə ölkəmizin dost və tərəfdaşlarının sayının artmasını, respublikamızın ikitərəfli və çoxtərəfli münasibətlərinin inkişafını şərtləndirir. 2018-ci ildə Azərbaycanın tərəfdaş ölkələrlə əlaqələrinin yeni mərhələyə qədəm qoyması bunun bariz nümunəsi və təzahürüdür.

Nurlan QƏLƏNDƏRLİ

# MDB ölkələrinin hökumət başçıları Qazaxıstan Prezidenti Nursultan Nazarbayevlə görüşüblər



Astanada MDB Hökumət Başçıları Şurasının iclasında iştirak edən nümayəndə heyətlərinin başçıları noyabrın 2-də Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevlə görüşüblər.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov görüşdə iştirak edib.

Prezident Nursultan Nazarbayev MDB üzv ölkələrinin əməkdaşlığının möhkəmləndirilməsində Şuranın iclasının xüsusi əhəmiyyətini vurğulayıb və bildirib ki, bu tədbir qarşılıqlı faydalı əlaqələrin daha da inkişafına kömək edəcək. Dövlət başçısı MDB ölkələri arasında ticari-iqtisadi əlaqələrin inkişaf etdirilməsinin vacibliyini söyləyib.

Qazaxıstan Prezidenti bildirib ki, MDB ölkələrimiz arasında tarixi əlaqələrin qorunmasına və hər bir ölkənin suverenliyini gücləndirməyə imkan verən tamhüquqlu bir təşkilatdır. MDB daxilində qarşılıqlı ticarət artmaqda davam edir. Ötən il ticarət dövriyyəsi 164 milyard ABŞ dolları təşkil edib ki, bu da 25 faiz artım deməkdir.



Nursultan Nazarbayev MDB Hökumət Başçıları Şurasının əvvəlki iclasının yekunlarına da toxunaraq deyib: **"Biz təşkilatın gücləndirilməsi məsələlərini nəzərdən keçirdik. Bu, işin səmərəliliyinin artırılmasına və müasir reallıqlara uyğunlaşdırılmasına yönəlmiş modernləşmə prosesinin təşviqini nəzərdə tutur. Birlik çərçivəsində iqtisadi əməkdaşlığın genişləndirilməsi məqsədilə İqtisadi İnkişaf Strategiyasını yeniləmək və MDB ölkələrinin Xidmətləri üzrə Azad Ticarət Sazişinin qəbul edilmiş layihələrinin icrasını sürətləndirmək lazımdır".**

Bundan əlavə, Qazaxıstan Prezidenti Düşənbədə MDB Dövlət Başçıları Şurasının iclasında irəli sürülən yeni təkliflərin müzakirəsinin nəticələri barədə məlumat verib. Təkliflərin arasında Birlik daxilində ticarət maneələrinin aradan qaldırılması, nəqliyyat və logistika, turizm sektorlarında qarşılıqlı əlaqələrin səmərəliliyinin artırılması, kosmik sənayedə layihələrin həyata keçirilməsi, rəqəmsal iqtisadiyyatın inkişafı və innovativ həllərin istifadəsi məsələləri mühüm yer tutur.

Nursultan Nazarbayev Dövlət Başçıları Şurasının iclasında irəli sürülən təkliflərin yerinə yetirilməsi ilə bağlı praktiki işin lazım olduğunu qeyd edib, bütün istiqamətlər üzrə kompleks tədbirlər planının hazırlanmasının vacibliyini bildirib. Vurğulayıb ki, bu təşəbbüslərin həyata keçirilməsi həm iqtisadi inkişafa, həm də ölkələrimiz arasında əlaqələrin möhkəmləndirilməsinə kömək edəcək.

# Azərbaycanın Baş naziri Novruz Məmmədov qazaxıstanlı həmkarı Bakıtjan Saqintayevlə görüşüb



Baş nazir Novruz Məmmədovun rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti Müstəqil Dövlətlər Birliyi (MDB) Hökumət Başçıları Şurasının növbəti iclasında iştirak etmək üçün Qazaxıstanın paytaxtı Astanaya gəlib. Səfər çərçivəsində Baş nazir Novruz Məmmədovun noyabrın 2-də qazaxıstanlı həmkarı Bakıtjan Saqintayevlə görüşü olub.

AZƏRTAC xəbər verir ki, görüş zamanı ikitərəfli əməkdaşlıq münasibətlərinin inkişafı, aktual regional və beynəlxalq məsələlər müzakirə edilib.

Qazaxıstanın Baş naziri Bakıtjan Saqintayev bildirib ki, MDB Hökumət Başçıları Şurası regional və beynəlxalq məsələlərin müzakirəsi üçün əlverişli əməkdaşlıq platforması olmaqla yanaşı, müasir dövrün çağırışlarına uyğun birgə tədbirlərin həyata keçirilməsinə də öz töhfəsini verir.

Baş nazir Novruz Məmmədov Azərbaycan ilə Qazaxıstan arasında əlaqələrin daha da inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıb və bunun üçün geniş imkanların olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, ölkələrimizi tarixi dostluq, qardaşlıq telləri bağlayır. Xalqlarımız eyni köklərə, mədəniyyət və mənəviyyata malikdir. Azərbaycan ilə Qazaxıstanın strateji tərəfdaşlar olduğunu bildirən Baş nazir Novruz Məmmədov deyib: **"Bizim ölkələrin liderləri - Ulu öndər Heydər Əliyev və Nursultan Nazarbayev hələ Sovet dövründə iki dost, qardaş xalqın rəhbərləri kimi sıx əməkdaşlıq şəraitində çalışıblar. Bu ənənələr müstəqillik illərində daha da inkişaf etdirilib. Azərbaycan Prezidenti İlham Əliyev də Qazaxıstanla ikitərəfli faydalı əməkdaşlığı xarici siyasətimizin prioritetləri sırasında hər zaman vurğulayıb".**

Görüşdə bildirilib ki, Azərbaycan və Qazaxıstan Çindən Avropaya qədər uzanan beynəlxalq nəqliyyat dəhlizinin üzərində yerləşir. Hər iki ölkə bu tranzit xəttin imkanlarından maksimum dərəcədə faydalanmaqda maraqlıdır. Baş nazirlər bu baxımdan Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin, Yeni Bakı Beynəlxalq Dəniz Limanının, Qazaxıstanın qərb və şərq sərhədlərini birləşdirən dəmir yolu xətlərinin və Kurık dəniz limanının əhəmiyyətini qeyd ediblər.



# Astanada MDB Hökumət Başçıları Şurasının iclası keçirilib

Noyabrın 2-də Qazaxıstanın paytaxtı Astanada MDB Hökumət Başçıları Şurasının növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədovun rəhbərliyi ilə nümayəndə heyəti iclasda iştirak edib.

Ənənəvi olaraq iclas iki formatda keçirilib. Nümayəndə heyətləri rəhbərlərinin məhdud tərkibdə görüşündə üzv ölkələr arasında əməkdaşlığın aktual məsələləri ilə bağlı fikir mübadiləsi aparılıb, iqtisadi, maliyyə və humanitar sahələrdə əlaqələrin genişləndirilməsi istiqamətində qarşıda duran vəzifələr müzakirə edilib.









Azərbaycanın Baş naziri Novruz Məmmədov məhdud tərkibdə iclasda çıxış edib.

İclas iştirakçılarını Azərbaycan Hökuməti adından salamlayan Novruz Məmmədov bildirib ki, MDB bu qurumun üzv dövlətlərinin hərtərəfli əməkdaşlığı, həm regional, həm də beynəlxalq gündəlikdəki aktual məsələlərin müzakirəsi və bu məsələlər üzrə qarşılıqlı fəaliyyət üçün mühüm platformadır. MDB formatında daimi sıx əlaqələrin və ikitərəfli əməkdaşlığın səviyyəsi ölkələrimiz arasında qarşılıqlı anlaşmaya və etimadın möhkəmlənməsinə şərait yaradır, Birliyin inkişafında mühüm rol oynayır.

İclasın gündəliyinə daxil edilmiş məsələlərin əhəmiyyətinə toxunan Novruz Məmmədov qeyd edib ki, Azərbaycanın təşəbbüsü ilə başlanan qlobal enerji və nəqliyyat layihələrinin reallaşdırılması həm bizim ölkənin, həm də bütövlükdə regionun infrastrukturunun modernləşdirilməsinə mühüm töhfə verməkdə davam edir. Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin qovuşuğunda yerləşən Azərbaycan regionda mühüm tranzit rolu oynayır. Bakıda yeni Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin açılması Azərbaycanın yürütdüyü uğurlu iqtisadi siyasətin nəticəsidir. İqtisadi artımın dinamikasının saxlanması, makroiqtisadi sabitliyin möhkəmlənməsi, investisiya şəraitinin yaxşılaşması, iqtisadiyyatın şaxələndirilməsinin sürətlənməsi əhalinin rifahını yüksəltməyə yönəlmiş uğurlu sosial siyasəti həyata keçirməyimizə imkan verir.

Azərbaycanın bütün sahələrdə, o cümlədən humanitar sferada əməkdaşlığın möhkəmlənməsinə böyük əhəmiyyət verdiyini diqqətə çatdıran Baş nazir bildirib ki, ölkəmiz humanitar əməkdaşlığın inkişafına sanballı töhfə verir. Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə başlanmış "Bakı Prosesi" - bu il on illiyi qeyd edilən Mədəniyyətlərarası Dialoq üzrə Beynəlxalq Forum tolerantlığın və xalqlar arasında qarşılıqlı anlaşmanın möhkəmlənməsinə yönəlmiş birgə səyləri dəstəkləmək üçün səmərəli platformadır. Bu il oktyabrın 25-26-da Bakı şəhərində 86 ölkənin, 25 beynəlxalq və regional təşkilatın nümayəndələrinin iştirakı ilə, artıq ənənə halı almış, beynəlxalq mədəni və humanitar əməkdaşlığın möhkəmlənməsinə sanballı töhfə verən VI Beynəlxalq Humanitar Forum keçirildi. Yeri gəlmişkən, Rusiya Prezidenti Vladimir Putin Forum iştirakçılarına müraciətində VI Bakı Forumunun "Yeni dünya və yeni insan formalaşdıraq: yaradıcılıq və insan inkişafı" mövzusunun müasir cəmiyyət üçün böyük əhəmiyyətini xüsusi qeyd edib.

Baş nazir Novruz Məmmədov vurğulayıb ki, ənənəvi olaraq Bakıda keçirilən beynəlxalq humanitar forumlar Azərbaycanın multikulturalizm dəyərlərini və mədəniyyətlərarası dialoqun inkişafına yönəlmiş səylərini əyani şəkildə nümayiş etdirir. Novruz Məmmədov deyib: **"Əminəm ki, humanitar sahədə sıx əlaqələr əməkdaşlığın möhkəmləndirilməsi üçün əlverişli zəmindir. Hesab edirəm ki, MDB iştirakçısı olan dövlətlərin humanitar əməkdaşlığı sahəsində 2019-2020-ci illər üçün Prioritet Tədbirlər Planının həyata keçirilməsi humanitar sferada, xüsusən təhsil, elm, mədəniyyət, idman, turizm, habelə gənclərlə iş sahələrində qarşılıqlı fəaliyyətin genişləndirilməsinə şərait yaradacaq".**

MDB məkanında nizamlanmamış münaqişələr məsələsinə toxunan Azərbaycanın Baş naziri qeyd edib ki, bu problem regional əməkdaşlığın həyata keçirilməsi və Birliyin iştirakçısı olan bütün dövlətlər arasında daha sıx qarşılıqlı fəaliyyət üçün başlıca maneədir. Münaqişələrin suverenlik, ərazi bütövlüyü və dövlət sərhədlərinin toxunulmazlığı əsasında, beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normalarına uyğun şəkildə tezliklə nizamlanması, şübhəsiz, regional və beynəlxalq təhlükəsizliyin möhkəmlənməsinə kömək edəcək, davamlı inkişaf üçün daha əlverişli şərait yaradacaq.

* * *

Sonra MDB Hökumət Başçıları Şurasının iclası işini geniş tərkibdə davam etdirib. İclasının gündəliyinə müxtəlif sahələrdə əməkdaşlığa dair 15 məsələ daxil edilib.

Əvvəlcə iclasda MDB iştirakçısı olan dövlətlərin qarşılıqlı fəaliyyəti, nüvə və ya radiasiya qəza vəziyyəti yarandığı halda onların nəticələrinin aradan qaldırılmasına dair qarşılıqlı yardım üzrə saziş müzakirə edilib.

Sazişin əsas hədəfi fövqəladə hallar zamanı radioaktiv təsirə məruz qalan böyük ərazilər üçün bərpa texnologiyalarının işlənib hazırlanması, əhalinin təhlükəsizliyinin və sosial reabilitasiyasının təmin edilməsidir.

Eyni zamanda, iclasda sərbəst ticarət razılaşması layihəsinin hazırlanmasına xüsusi diqqət yetirilib. Qarşılıqlı ticarətdə sədlərin aradan qaldırılması üçün bu sahədəki prosedurların sadələşdirilməsi, həmçinin yeni texnologiyaların tətbiqi məsələləri müzakirə olunub. Bununla yanaşı, birgə fəaliyyətin daha da təkmilləşdirilməsi istiqamətində konkret təkliflər səsləndirilib.

İclasda MDB Hökumət Başçıları Şurasının növbəti iclasının 2019-cu il mayın 31-də Aşqabadda keçirilməsi qərara alınıb.

Hökumət Başçıları Şurasının Astana iclasının yekununda bir neçə sənədin, o cümlədən MDB üzv dövlətləri arasında vergi idarəçiliyi üzrə elektron informasiya mübadiləsi haqqında Protokol imzalanıb.

Bununla da iclas işini başa çatdırıb.

# Paraqvayın SNT televiziya kanalı Azərbaycan haqqında reportaj yayımlayıb







Paraqvayın geniş tamaşaçı auditoriyasına malik olan SNT televiziya kanalı Azərbaycan haqqında reportaj yayımlayıb.

AZƏRTAC xəbər verir ki, reportajda ispandilli tamaşaçılara Azərbaycan haqqında ətraflı məlumat verilir.

Reportajın yayımlandığı verilişdə çıxış edən müəllif Karlos Troçe əvvəlcə Azərbaycana səfərinin təəssüratlarından danışır. O bildirir ki, Azərbaycan Xəzər dənizinin sahilində, Avropa ilə Asiyanın kəsişməsində yerləşən, enerji resursları ilə zəngin, uzaq məsafədə yerləşməsinə baxmayaraq Latın Amerikası dövlətləri, xüsusilə də Paraqvay ilə əlaqələrin genişləndirilməsində maraqlı olan bir ölkədir. Azərbaycanın Argentinada səfirliyi fəaliyyət göstərir, gələcəkdə Paraqvayda konsulluğunun açılması nəzərdə tutulur. Son vaxtlar Azərbaycan ilə Paraqvay arasında əlaqələr intensivləşir. Hər iki ölkənin bir-birinə diqqətini cəlb edən məqamlar var.







Karlos Troçe Azərbaycana səfərinin və reportajı hazırlamaqda məqsədinin Latın Amerikası ölkələrinin xalqlarını bu ölkə ilə yaxından tanış etmək olduğunu bildirir. O, Azərbaycan ilə Latın Amerikası ölkələri arasında münasibətlərin genişlənməsinin tərəflər üçün faydalarını qeyd edir.

Reportajda Azərbaycanın tarixinə qısa ekskursiya edilir, əlverişli coğrafi mövqeyi, mədəniyyəti, adət-ənənələri barədə məlumat verilir. Bildirilir ki, ötən əsrin əvvəllərində Azərbaycan dünya neft bazarındakı neftin yarısını təmin edib. Azərbaycan çox zəngin, tolerant, dünyəvi bir ölkədir. Azərbaycan enerji resurslarından əldə olunan gəlirləri ölkənin inkişafına sərf edir. Paytaxt Bakıdakı tikililər həm qədimliyi, həm də müasirliyi ehtiva edir. Azərbaycan Latın Amerikası ölkələri, xüsusilə də Paraqvay ilə ticari-iqtisadi, mədəni əlaqələrini genişləndirir. Azərbaycan Paraqvaydan ət idxalında maraqlıdır.

Reportajda Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun Azərbaycan ilə Latın Amerikası ölkələri, xüsusilə Paraqvay arasında əlaqələrin inkişafına dair fikirlərinə də yer verilir. Əli Həsənov deyir: **"Əgər siz Azərbaycanda fəaliyyət göstərən restoranları gəzsəniz, əminəm ki, Paraqvaydan idxal olunan ətdən istifadə edildiyini görəcəksiniz. İndi qida təhlükəsizliyinə nəzarət edən qurum ət idxalının təminatına da nəzarət edir. Düşünürəm ki, biz gələcəkdə də bu sahədə əməkdaşlıq edəcəyik".**

Müəllif qeyd edir ki, Azərbaycan tərəfi, öz növbəsində, paraqvaylı gənclərə ölkədə bakalavr və magistr pillələrində təhsil üçün təqaüd almaq imkanı yaradır. Azərbaycanın sürətli inkişafının əsas səbəblərindən biri də neft və qaz ixracından gələn gəlirlərin bir hissəsini təhsilə yatırmasıdır. Ölkədə yoxsulluğun səviyyəsi 5 faizə qədər azalıb, işsizliyin səviyyəsi də demək olar ki, sıfıra düşüb.

Reportajda Prezidentin köməkçisi Əli Həsənov qeyd edir ki, Azərbaycan Cənubi Qafqazda siyasi, iqtisadi, energetika baxımından lider ölkədir. Biz əlaqələrimizin inkişaf etməsini istəyirik. Azərbaycanla Paraqvay arasında əlaqələrin dərinləşməsi təkcə sərmayə baxımından deyil, texnologiya, təhsil sahələrində də əməkdaşlığa təkan verəcək.

Verilişin aparıcısının "Biz Azərbaycana necə gedə, viza məsələlərini necə həll edə bilərik" sualına cavabında Karlos Troçe deyir: **"Bayaq dediyim kimi, Azərbaycanın Argentinada səfirliyi fəaliyyət göstərir. Paraqvaydan Azərbaycana səfər etmək üçün isə Argentinaya getməyə ehtiyac yoxdur. Azərbaycanda "ASAN viza" sistemi fəaliyyət göstərir. Beləliklə, səfirliyin səhifəsində paylaşdığı linkə daxil olmaq və onlayn qaydada, çox rahat, çox asan, üç saat müddətində viza almaq mümkündür".**

Aparıcı heyrətlə deyir: **"Bu, inanılmazdır".**

Reportajda Azərbaycan xalq mahnılarının fonunda Bakının gəzməli-görməli yerlərindən videokadrlar göstərilir.

# Milli Məclisin növbəti iclası keçirilib

*İclasda bir sıra məhkəmələrə hakimlər təyin edilib, eləcə də "Azərbaycan Respublikası Dövlət Bayrağının təsvirinin təsdiq edilməsi haqqında", "Azərbaycan Respublikası Dövlət Gerbinin təsvirinin təsdiq edilməsi haqqında", "Azərbaycan Respublikası Dövlət Himninin musiqisinin və mətninin təsdiq edilməsi haqqında" Konstitusiya qanunları ikinci səsverməyə çıxarılıb*

Noyabrın 2-də Milli Məclisin növbəti plenar iclası keçirilib. Milli Məclisin sədri Oqtay Əsədov iclası açıq elan edib və gündəlik barədə məlumat verib. Sonra parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Azərbaycan Ali Məhkəməsinə, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinə, Bakı, Gəncə, Sumqayıt, Şirvan və Şəki Apellyasiya məhkəmələrinə hakimlərin təyin edilməsi barədə məsələlərlə bağlı məlumat verib. Komitə sədri bildirib ki, son illər Azərbaycanda məhkəmə-hüquq islahatları keyfiyyətcə yeni mərhələyə daxil olub. Məhkəmə hakimiyyətinin möhkəmləndirilməsi ilə əlaqədar onun özünüidarə orqanı olan Məhkəmə-Hüquq Şurasının səlahiyyətləri də genişləndirilib. Ölkəmizdəki sürətli iqtisadi inkişaf mülki və inzibati xarakterli işlərin də artımına gətirib çıxarıb. Məhz bununla bağlı olaraq irəli sürülmüş təkliflər nəzərə alınaraq 2007-ci illə müqayisədə məhkəmə hakimlərinin sayı iki dəfə artıb. Bununla yanaşı, məhkəmə-hüquq islahatları çərçivəsində qanunvericilik, institusional tədbirlər də görülüb.



***Oqtay Əsədov:*** *İnanırıq ki, yeni təyin olunmuş hakimlər fəaliyyətlərində ədalətli qərarlar verəcəklər*

Ə.Hüseynli qeyd edib ki, Prezident İlham Əliyevin korrupsiyaya və digər neqativ hallara qarşı mübarizənin gücləndirilməsi ilə bağlı tapşırıq və tövsiyələri məhkəmə-hüquq sistemindən də kənarda qalmayıb. Məhkəmə-Hüquq Şurasının fəaliyyəti dövründə 230-dan çox hakim barədə intizam icraatı başlanılıb, qanun pozuntusu və digər neqativ hallara yol verdiyinə görə 100-dən çox hakim məhkəmə sistemindən kənarlaşdırılıb. Hazırda Ali və Apellyasiya məhkəmələrində 30, o cümlədən Ali Məhkəmədə bir, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsində üç, Apellyasiya məhkəmələrində isə bütövlükdə 26 vakansiya mövcuddur.

Ə.Hüseynli yeni namizədlər barədə məlumatı diqqətə çatdırıb. Qeyd olunub ki, "Məhkəmələr və hakimlər haqqında" Qanuna uyğun olaraq Sənan Firudin oğlu Hacıyev Bakı Apellyasiya Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi təyin edilir. Novruzov Əsgər Novruz oğlu, Allahverdiyev Mehman Dünyamalı oğlu, Xıdırov Əhliman Mehman oğlu Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimləri təyin edilirlər. Sadıqov Vahid Nəriman oğlu, Əhmədov İlham Bayram oğlu, Məmmədova Şərafət Asif qızı, Məhərrəmova Şeyda Ədalət qızı, Məmmədov Habil Çingiz oğlu, Rəhimov Elmar Eldar oğlu, Kərimli İlham Əziz oğlu, Abdulov Rəşad Məhərrəm oğlu, Babayev Fuad Fikrət oğlu, Əliyev Zaur Əli oğlu, Əkbərov Kamran Hüseyn oğlu və Hüseyn Aida Əli qızının "Məhkəmələr və hakimlər haqqında" Qanunun müvafiq hissələrinə uyğun olaraq Bakı Apellyasiya Məhkəməsinin hakimləri vəzifəsinə təyin edilməsi məqsədəuyğun sayılıb.



***Ziyafət Əsgərov:*** *Son illər ölkəmizdə penitensiar sahədə mühüm islahatlar həyata keçirilir*

Bildirilib ki, Hüseynzadə Afiq Hüseyn oğlu və Mamedov Rəşad Ziyaviddin oğlu Gəncə Apellyasiya Məhkəməsinin, Babayeva Hökumə Çingiz qızı, Əsgərova Ruhiyyə Orucəli qızı, Məmmədov Fuad Əli oğlu, Rzayev Məhəmmədəli Əsəd oğlu Sumqayıt Apellyasiya Məhkəməsinin, Abbasov Fehruz Novruz oğlu, Həsənov Müşfiq Kamil oğlu, Kərimov Taleh Suliddin oğlu Şirvan Apellyasiya Məhkəməsinin, Eyvazov Akif Məhərrəm oğlu, Mahmudov Ayaz Akif oğlu Şəki Apellyasiya Məhkəməsinin hakimləri təyin edilirlər.



Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov bildirib ki, son illər ölkəmizdə penitensiar sahədə mühüm islahatlar həyata keçirilir. Onun sözlərinə görə, dövlət başçısının bu sahə ilə bağlı sərəncamları böyük əhəmiyyətə malikdir. Eyni zamanda, Milli Məclis tərəfindən Cinayət Məcəlləsinə, Cinayət Prosessual Məcəlləyə müvafiq dəyişikliklər edilib. Bütün bunların nəticəsində cəza siyasətinin humanistləşdirilməsi istiqamətində önəmli addımlar atılır.



***Əli Hüseynli:*** *Məhkəmə-Hüquq Şurasının fəaliyyəti dövründə 230-dan çox hakim barədə intizam icraatı başlanılıb və 100-dən çox hakim məhkəmə sistemindən kənarlaşdırılıb*

Spiker Oqtay Əsədov yeni təyin olunmuş hakimləri təbrik edib və fəaliyyətlərində uğurlar arzulayıb: **"İnanırıq ki, yeni təyin olunmuş hakimlər fəaliyyətlərində ədalətli qərarlar verəcəklər".**

Sonra Əli Hüseynli İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsini üçüncü oxunuşda şərh edib. Dəyişikliyə əsasən, yetkinlik yaşına çatmayanlara tütün məmulatı almaqla, verməklə, tütün məmulatından istifadəni təklif və ya tələb etmək yolu ilə onların tütündən istifadə prosesinə cəlb edilməsinə görə yüz manat məbləğində cərimə tətbiq edilir. Tütün məmulatlarının ətraf mühitə atılmasına görə əlli manat məbləğində cərimə nəzərdə tutulur. "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Qanunla qadağan edilmiş yerlərdə (tütün çəkmək üçün təşkil edilmiş xüsusi yerlər istisna olmaqla) tütün çəkilməsinə şərait yaradılmasına, yaxud tütün çəkilməsinin təklif edilməsinə görə vəzifəli şəxslər beş yüz manat məbləğində, hüquqi şəxslər min iki yüz manat məbləğində cərimələnəcək.

Daha sonra parlamentin Mədəniyyət komitəsinin sədri Rafael Hüseynov üçüncü oxunuşda "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Qanunda nəzərdə tutulan dəyişiklik barədə məlumat verib. Dəyişikliyə görə televiziya və videofilmlərdə, teatr tamaşalarında, radio, televiziya, video və kinoxronika proqramlarında, uşaqlar üçün nəzərdə tutulan audiovizual əsərlərdə tütün məmulatlarının və tütün istifadəsi prosesinin təbliğat məqsədilə nümayiş etdirilməsi, həmçinin tütün məmulatlarının və tütün istifadəsi prosesinin təbliğat məqsədilə nümayiş etdirildiyi əsərlərin, tamaşaların, proqramların efirdə, kabel yayımı vasitəsilə açıq yayımlanması qadağan edilir.

"Televiziya və radio yayımı haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini üçüncü oxunuşda təqdim edən Rafael Hüseynov bildirib ki, qanun layihəsinə əsasən sənədə "tütün məmulatlarını və tütün istifadəsi prosesini təbliğat məqsədilə nümayiş etdirməmək, həmçinin tütün məmulatlarının və tütün istifadəsi prosesinin təbliğat məqsədilə nümayiş etdirildiyi əsərləri, tamaşaları, proqramları efirdə, kabel yayımı vasitəsilə açıq yayımlamamaq" məzmunlu 40.2.2-1-ci maddə əlavə edilir. "İctimai televiziya və radio yayımı haqqında" Qanuna da eyni məqsədlə yeni maddə əlavə olunacaq.



***Siyavuş Novruzov:*** *Dövlət atributları xalqımızın tarixini, kimliyini əks etdirir*

Komitə sədri üçüncü oxunuşda "Teatr və teatr fəaliyyəti haqqında" Qanunda edilən dəyişiklikləri də şərh edib. Diqqətə çatdırıb ki, dəyişikliyə görə sənədə "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikası Qanununun 14.1.4-cü maddəsinə uyğun olaraq, teatr tamaşalarında tütün məmulatlarının və tütün istifadəsi prosesinin təbliğat məqsədilə nümayiş etdirilməsi qadağandır" məzmunlu 11.4-cü maddə əlavə edilir. Hər üç qanunda nəzərdə tutulan dəyişikliklər "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Qanuna uyğunlaşdırılma məqsədi daşıyır.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

İclasda həmçinin "Azərbaycan Respublikası Dövlət Bayrağının təsvirinin təsdiq edilməsi haqqında", "Azərbaycan Respublikası Dövlət Gerbinin təsvirinin təsdiq edilməsi haqqında", "Azərbaycan Respublikası Dövlət Himninin musiqisinin və mətninin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya qanunları ikinci səsverməyə çıxarılıb.

Müzakirələr zamanı deputatlar atributlara dəyişikliklərlə bağlı bir sıra təkliflər irəli sürüblər. Bununla bağlı YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov söyləyib ki, dövlət atributları ilə bağlı müddəalar Konstitusiyada əks olunub və Konstitusiyaya dəyişikliklər isə yalnız referendum yolu ilə baş tuta bilər: **"Konstitusiyada atributların adı necə gedibsə, o adla da təqdim olunur. Əgər biz bu adı dəyişdirmək istəsək, o zaman ilk növbədə Konstitusiyaya dəyişiklik edilməlidir. Mən hesab edirəm ki, hər dəyişiklik o qədər də fayda gətirmir. Biz niyə 100 il bundan öncəki tariximizi dəyişməliyik? Bizim bayrağımızın əvəzi yoxdur. Himnimizdə və digər atributlarda olan cəhətləri ilə bağlı hər kəsin fikri ola bilər. Amma mən bunların tərəfdarı deyiləm. Düşünürəm ki, atributlarımız olduğu kimi qalsa daha yaxşıdır. Ona görə də, dövlətin atributları dəyişdirilməməlidir, çünki onlar xalqımızın tarixini, kimliyini əks etdirir".**

S.Novruzov bildirib ki, vaxtilə Ulu öndər Heydər Əliyev atributlarımıza dəyişikliklə bağlı təkliflərin əleyhinə çıxış edib: **"Bayraq xalqın mənəviyyatını, həyatını əks etdirir. Bu baxımdan düşünürəm ki, bizim atributlar yerindədir. Qanun layihələrində məsələlər düzgün şəkildə əks olunub".**

Müzakirələrdən sonra Konstitusiya qanunları ikinci səsverməyə çıxarılıb və qəbul edilib.

**Nardar BAYRAMLI**

# Göyçayda "Nar bitkisi və məhsullarının multidissiplinar problemləri" mövzusunda respublika elmi-praktik konfransı keçirilib

Noyabrın 2-də Göyçay şəhərində Azərbaycan Milli Elmlər Akademiyasının, rayon icra hakimiyyətinin, AMEA-nın Genetik Ehtiyatlar İnstitutunun, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının və BMT-nin İnkişaf Proqramının birgə təşkilatçılığı ilə "Nar bitkisi və məhsullarının multidissiplinar problemləri" mövzusunda respublika elmi-praktik konfransı keçirilib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, əvvəlcə tədbir iştirakçıları Göyçayın mərkəzində Ümummilli liderimiz Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad ediblər.

Elmi-praktik konfransı açan AMEA-nın prezidenti, akademik Akif Əlizadə Azərbaycan alimlərinin aqrar sektorun inkişafı, əhalinin qida təhlükəsizliyinin təmin edilməsi, maddi rifahının yüksəldilməsi istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirdiyini vurğulayaraq, tədbirin nar bitkisi və məhsullarının multidssiplinar problemlərinə həsr olunduğunu bildirib. Akademik aqrar sahənin ətraf mühitə ziyan vurmadan elmi əsaslarla inkişafı, məhsuldarlığın və keyfiyyətin yüksəldilməsi, ixracyönümlü məhsul istehsalının artırılması, kənd təsərrüfatı məhsullarına ehtiyacın daxili istehsal hesabına təmin edilməsinin elmin qarşısında duran mühüm vəzifələr olduğunu diqqətə çatdırıb. O, AMEA ilə Kənd Təsərrüfatı Nazirliyi arasında sentyabr ayında imzalanan qarşılıqlı əməkdaşlığa dair memorandumdan da bəhs edərək, sənəddə prioritet istiqamətlər üzrə əməkdaşlığın müəyyənləşdirildiyini və icrası ilə əlaqədar əməli fəaliyyətə başlanıldığını diqqətə çatdırıb.





Akademiyada biologiya üzrə müasir dünya standartları səviyyəsində tədqiqatların aparıldığını deyən alim AMEA-nın Genetik Ehtiyatlar İnstitutunda həyata keçirilən "Genom və transkriptom səviyyəsində bitki genetik ehtiyatlarının identifikasiyası, onların saxlanılması və səmərəli istifadəsi üzrə dayanıqlı sistemin yaradılması" adlı tədqiqatı xüsusilə qeyd edib: **"Son dövrlərdə qəbul edilmiş bir sıra dövlət proqramlarında ənənəvi kənd təsərrüfatı bitkilərinin inkişaf etdirilməsi əsas istiqamətlərdən birini təşkil edir. Azərbaycana valyuta qazandıracaq bitkilərin siyahısında fındıqdan sonra nar bitkisi önəmli rola malikdir".**

A.Əlizadə onu da vurğulayıb ki, ilk dəfə olaraq AMEA və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının birgə əməkdaşlığı nəticəsində Azərbaycanın 10-dan çox rayonunda nar bitkisinin yerli xalq seleksiyası sortlarının koordinatları xəritələşdirilib: **"Ən mühüm addımlardan biri, dünyada ilk dəfə olaraq "Azərbaycan gülöyşəsi" nar sortunun genomunun oxunması və genom məlumatlarının ABŞ-ın Biotexnologiya İnformasiyaları üzrə Milli Mərkəzi (NCBI) tərəfindən qeydə alınmasıdır. Nar genomunun oxunması nəticəsində əldə olunan yüksək keyfiyyətli referens genom nar bitkisinin iqtisadi əhəmiyyət kəsb edən xüsusiyyətlərinin yaxşılaşdırılması üçün mövcud yol xəritəsidir və bu, genom məlumatlarını birbaşa təsərrüfat əhəmiyyətli əlamətlərlə əlaqələndirməyə imkan verəcək".**

Tədbirdə çıxış edən kənd təsərrüfatı nazirinin müavini Seyfəddin Talıbov iqtisadiyyatın aparıcı sahələrindən olan aqrar sektorda həyata keçirilən islahatlardan, bu islahatların əhəmiyyətindən danışıb. O, kənd təsərrüfatı sahəsində sosial-iqtisadi göstəricilərin yüksəldiyini, bu sahədə islahatların daha böyük nəticələr verəcəyinə əminliyini bildirib.

Rayon icra hakimiyyətinin başçısı Mehdi Səlimzadə konfrans iştirakçılarını şəhərdə görməkdən məmnun olduğunu bildirib. Qonaqları nar bayramı münasibətilə təbrik edərək, konfransın işinə uğurlar arzulayıb. Mehdi Səlimzadə nar bayramının ölkəmizə gələn qonaqların böyük marağına səbəb olduğunu, bu bayramın həm də Azərbaycanın dünyada təbliğinə xidmət göstərdiyini söyləyib.

İcra hakimiyyətinin başçısı rayonda sosial-iqtisadi inkişaf və kənd təsərrüfatı sahəsində əldə olunan uğurlar barədə də məlumat verib. Narçılığın iqtisadi cəhətdən gəlirli sahə olduğunu vurğulayan M.Səlimzadə rayon üçün ənənəvi sayılan bu sahənin inkişafına dəstəyin davam etdiyini bildirib, məhsuldar nar sortlarının yetişdirilməsi, yeni bağların salınması istiqamətində işlərin görüldüyünü diqqətə çatdırıb.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İsakzai Azərbaycanda dövlətin elmə yüksək dəstək göstərdiyini qeyd edərək, BMT-nin İnkişaf Proqramı ilə birgə icra olunan layihələrin əhəmiyyətindən danışıb.

BMT-nin Ərzaq Təşkilatının (FAO) Azərbaycan nümayəndəliyinin rəhbəri Mələk Çakmak Azərbaycanın aqrar sahədə böyük potensiala malik olduğunu və son illər ölkəmizdə mühüm nailiyyətlərin əldə edildiyini deyib. Mələk Çakmak FAO-nun Azərbaycanda həyata keçirilən layihə və proqramları barədə də məlumat verib.

Konfransda AMEA Biologiya və Tibb Elmləri Bölməsinin akademik-katibi, akademik Əhliman Əmiraslanov "Nar bitkisi və insan sağlamlığı" mövzusunda çıxış edib. Alim narın xalq təbabətində və müasir tibdə geniş istifadəsindən, onun mədə xəstəliklərinə, astma, angina, sinqa, ateroskleroz və bir çox digər xəstəliklərə, eləcə də nar qabığının xərçəngə qarşı müalicəvi əhəmiyyətindən, nar çəyirdəyi yağının arterial damarların təmizlənməsində faydalarından söz açıb.

Sonra çıxış edən AMEA Genetik Ehtiyatlar İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Zeynal Əkpərov Prezident İlham Əliyevin qeyri-neft sektorunun inkişafında ixrac potensialı yüksək olan kənd təsərrüfatı məhsulları istehsalının artırılmasına xüsusi diqqət yetirdiyini bildirib. Bununla bağlı bir çox sərəncamların imzalandığını xatırladıb.

Z.Əkbərov "Azərbaycanda narın bioloji müxtəlifliyi" mövzusunda təqdimatla çıxış edib. Təqdimatda Azərbaycanda tarixən yetişdirilən nar sortlarından, narın genetik müxtəlifliyinin bioekocoğrafi tədqiqindən söz açılıb, bu sahədə mövcud problemlərdən və onların həlli istiqamətində tövsiyə olunan metodlardan danışılıb. Alim bildirib ki, narın zəngin genetik müxtəlifliyinin cəmləşdiyi, onun üçün tam əlverişli olan geniş ərazidə bu bitkinin yerli və introduksiya sort və formalarının toplanıldığı "Narın Canlı Təbiət Muzeyi"nin - milli genofond bağının yaradılmasına zərurət var.

Bakı Dövlət Universitetinin fizika fakültəsinin dekanı, professor Məhəmmədəli Ramazanov "Nar meyvəsindən alınan ekstraktda nanohissəciklərin bioloji sintezi və nitratların təmizlənməsi", AMEA Mikrobiologiya İnstitutunun elmi işlər üzrə direktor müavini, AMEA-nın müxbir üzvü Pənah Muradov "Nar bitkisinin xəstəlik və zərərvericiləri, onlara qarşı mübarizə tədbirləri", AMEA Genetik Ehtiyatlar İnstitutunun elmi işlər üzrə direktor müavini, biologiya üzrə fəlsəfə doktoru Mehrac Abbasov “”Azərbaycan gülöyşəsi" nar sortunun genomunun oxunması", AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutunun aparıcı elmi işçisi, professor Əlibala Əlizadə "Üzvi gübrələr ekoloji təmiz nar məhsulu istehsalında" mövzularında çıxış ediblər.

Daha sonra elmi-praktik konfrans məruzələr ətrafında müzakirələrlə davam edib.

Konfransın qətnaməsində qeyd olunub ki, müzakirələrin, təhlil və təkliflərin nar və onun məhsullarının istehsalında, emalında, saxlanmasında, istehlak və ixrac potensialının artırılmasında və bu sahədə elmi tədqiqatların inkişafında əhəmiyyəti nəzərə alınsın. Bundan əlavə, qətnamədə biotexnologiya, gen mühəndisliyi, İKT və sair sahələrin cəlb edilməsi ilə narın genetik tədqiqinə dair proqramların hazırlanması, hər bölgəyə və sorta uyğun yeni becərmə aqrotexnologiyalarının işlənilməsi, nar bitkisi üçün geniş ərazidə canlı təbiət muzeyinin yaradılması, narçılıq üzrə elmi əsaslı Dövlət Proqramı layihəsinin hazırlanması və müvafiq dövlət orqanları qarşısında bu barədə vəsatət qaldırılması və digər məsələlər də yer alıb.

# Milli Onkologiya Mərkəzinin yeni korpusunda 2 ədəd “VitalBeam(tm)” xətti sürətləndirici sistemi istifadəyə verilib







Milli Onkologiya Mərkəzinin (MOM) şüa müalicəsi şöbəsində əlavə olaraq ikimərtəbəli yeni korpus tikilib və dünyanın tibbi qurğular və xərçəng xəstəliyinin müalicəsi üçün proqram təchizatı istehsalı sahəsində aparıcı şirkəti olan Amerikanın “Varian Medical System”in 6-10 MeV-lıq yüksək enerjili 2 ədəd xətti sürətləndiricisi quraşdırılıb. Bununla da, MOM-un şöbəsində fəaliyyət göstərən və ən müasir kompüter proqramları ilə təchiz edilən xətti sürətləndiricilərin sayı 7-yə çatıb ki, bu da dünyada ən yüksək göstəricidir.

Açılışı bildirən rəmzi qırmızı lent kəsildikdən sonra MOM şöbəsinin yeni korpusu ilə tanışlıq olub.

AZƏRTAC xəbər verir ki, açılış mərasimində çıxış edən MOM-un baş direktoru, akademik Cəmil Əliyev səhiyyənin ən vacib sahələrindən biri olan onkologiyaya Azərbaycanda xüsusi diqqət yetirildiyini bildirib. Qeyd edilib ki, Azərbaycan Prezidentinin diqqəti və qayğısı sayəsində hazırda Milli Onkologiya Mərkəzi ən müasir avadanlıqla təchiz olunub. Zəngin maddi-texniki bazaya və güclü kadr potensialına malik olan MOM-u artıq dünyanın aparıcı onkoloji mərkəzləri ilə müqayisə etmək olar. Vurğulanıb ki, burada aparılan müalicənin əsas məqsədi xəstələrin ömrünün uzadılması, onların mümkün olduğu qədər tam şəfa tapmasıdır.

Akademik öz çıxışında xatırladıb ki, son illər Milli Onkologiya Mərkəzi onkoloji xəstələrin müalicəsi üçün zəruri yeni texnologiyaların istehsalçısı olan dünyanın aparıcı şirkətləri ilə sıx əməkdaşlıq edir. MOM ilə Amerikanın bədxassəli şişlərin radioterapiyası üçün müasir texnologiyaları layihələşdirən və istehsal edən “Varian Medical Systems” şirkəti arasında 2014-cü ilin oktyabrında imzalanmış əməkdaşlıq haqqında saziş buna sübutdur. Bununla da, Milli Onkologiya Mərkəzi rəsmi referens-mərkəz statusunu alıb. Sənəd tərəfdaşlar arasında əməkdaşlığın genişləndirilməsinə, müasir texnologiyaların Azərbaycana daha qısa vaxt ərzində çatdırılmasına, xarici mütəxəssislərlə geniş fikir mübadiləsi aparılmasına şərait yaradır. Bununla yanaşı, imzalanmış saziş Milli Onkologiya Mərkəzində onkoloji xəstələrə göstərilən yüksək səviyyəli xidmətin dünyanın aparıcı klinikaları tərəfindən tanınmasını təsdiq edir.

MOM-un şüa müalicəsi şöbəsinin müdiri, Əməkdar elm xadimi, professor İsa İsayev qeyd edib ki, tibb işçilərinin radioşüalanmanın mənfi təsirinə məruz qalmaması məqsədilə Mərkəzin şöbəsinin yeni korpusunun tikintisində Beynəlxalq Atom Enerjisi Agentliyinin tövsiyələri əsasında və Azərbaycanın Fövqəladə Hallar Nazirliyinin nəzarəti altında spesifik materiallardan istifadə edilib. Qeyd olunub ki, yüksək kadr potensialına malik MOM-un şüa müalicəsi şöbəsində hər gün 200-250, il ərzində isə 3 min insan radioterapiya alır. “Varian Medical System” şirkətinin Bakıdakı referens-mərkəzində radioterapiya üzrə praktik məşğələlər keçirilir, həmçinin xarici ölkədən olan həkimlər üçün müasir radioterapiya üsullarına həsr edilən kliniki proqramlar üzrə məşğələlər təşkil edilib. Eyni zamanda, seminarlar Azərbaycanın həm radiasiya onkoloqları, həm də digər mütəxəssislər - tibb fizikləri, mühəndislər və texniklər üçün keçirilir. Bununla yanaşı, elektrik enerjisinin fasiləsiz təminatı məqsədilə şüa müalicəsi şöbəsinin texniki xidmət otağında 16 generator quraşdırılıb. Həmçinin qeyd olunub ki, radioterapiyanın qabaqcıl üsullarının, xüsusilə, stereotaksik radiocərrahiyyənin öyrənilməsi çox mürəkkəb məsələdir. Bu müalicə üsulu üçün yüksəkixtisaslı kadrlar və müasir avadanlıqlar tələb olunur. Bununla bağlı, Avropadan olan aparıcı mütəxəssislər tərəfindən Mərkəzin tibb fizikləri, mühəndisləri və texnikləri üçün mütəmadi əsasda treninqlər keçirilir.

Sonda akademik Cəmil Əliyev tibb işçilərinə elmi-praktik fəaliyyətlərində uğurlar arzulayıb.

# Azərbaycan dünyanın ən çox islahat aparan ölkəsidir

*Dünya Bankının “Doing Business 2019” hesabatında respublikamız mövqeyini 2017-ci illə müqayisədə 32 pillə yaxşılaşdıraraq 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb*

Son illərdə müstəqil Azərbaycanın həyatı dünyadakı yeni trendlər və ölkəmizin güclü potensialı nəzərə alınmaqla həyata keçirilən dərinməzmunlu islahatlarla səciyyələnir. Prezident İlham Əliyevin siyasi iradəsi ilə aparılan islahatlar respublikada davamlı sosial-iqtisadi inkişafı, o cümlədən də qeyri-neft iqtisadiyyatında, özəl sektorda istehsal imkanlarının genişlənməsini təmin edib.

Əlamətdar haldır ki, respublikamızın nümunəvi inkişaf modeli bütün dünyada böyük diqqətlə izlənilir. Son vaxtlarda ayrı-ayrı nüfuzlu reytinq agentlikləri öz hesabatlarında Azərbaycanın müxtəlif sahələrdə qazandığı uğurları yüksək dəyərləndiriblər. Bu baxımdan Dünya Bankının bir neçə gün bundan əvvəl təqdim olunan “Doing Business 2019” hesabatı da istisna deyildir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar “Doing Business 2019” hesabatında Azərbaycanın ümumi reytinqdə yeni rekorda imza atmasına imkan verib.



## AZƏRBAYCAN DÜNYANIN 10 ƏN İSLAHATÇI DÖVLƏTİ SİYAHISINA DAXİL EDİLİB

Dünya Bankının yaydığı “Doing Business 2019” hesabatında Azərbaycan 10 ən islahatçı dövlət siyahısına daxil edilərək dünyanın ən çox islahat aparan ölkəsi elan olunub. Yeni hesabatda Azərbaycanın mövqeyi 2017-ci illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb. Hesabata əsasən, respublikamız dünyanın bir çox ölkələrini geridə qoymaqla Müstəqil Dövlətlər Birliyi ölkələri arasında lider mövqeyə yüksəlib.



*__Aydın Hüseynov:__ Aparılan iqtisadi islahatlar nəticəsində ölkədə maliyyə sabitliyi və iqtisadi artım təmin olunub, bir çox sahələrdə, xüsusilə kənd təsərrüfatı, qeyri-neft sənayesi və digər sektorlarda əhəmiyyətli irəliləyiş əldə edilib*

Ekspertlər Dünya Bankının yaydığı yeni hesabatda Azərbaycanın yüksək qiymətə layiq görülməsinin və ayrı-ayrı indikatorlar üzrə mövqeyini əhəmiyyətli dərəcədə yaxşılaşdırmasının ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan məqsədyönlü siyasətin məntiqi nəticəsi olduğunu bildirirlər. Qəzetimizə danışan Milli Məclisin deputatı Aydın Hüseynovun sözlərinə görə, dövlətimizin başçısı tərəfindən ölkədə sahibkarlığa dəstək məqsədilə biznes mühitinin bütün sahələri, xüsusilə biznesə başlama, tikinti üçün icazələrin alınması, elektrik təchizatı şəbəkələrinə qoşulma, maliyyə mənbələrinə çıxış imkanlarının artırılması, vergilərin ödənilməsi, əmlakın qeydiyyatı, xarici ticarətin aparılması üzrə əhəmiyyətli irəliləyiş baş verib. A.Hüseynov fikirlərinə davam edərək deyib: **“Prezident İlham Əliyevin qeyd etdiyi kimi, 2015-ci ilin sonlarından başlayaraq neft qiymətlərinin aşağı düşməsinə baxmayaraq, Azərbaycanda aparılan islahatlar daha da dərinləşib və mahiyyətcə yeni xarakter kəsb edib. Aparılan iqtisadi islahatlar nəticəsində ölkədə maliyyə sabitliyi və iqtisadi artım təmin olunub, bir çox sahələrdə, xüsusilə kənd təsərrüfatı, qeyri-neft sənayesi və digər sektorlarda əhəmiyyətli irəliləyiş əldə edilib”.**

Millət vəkili diqqəti ölkəmizdə biznes mühitinin daha da optimallaşdırılması, özəl sektora siyasi və maddi dəstək tədbirlərinin gücləndirilməsi məqsədilə həyata keçirilən islahatların önəminə çəkib. O bildirib ki, ölkəmizdə özəl sektorun imkanlarının artırılmasına hesablanan islahatlar müxtəlif məsələləri əhatə edir. Sahibkarların imkanlarının genişləndirilməsi baxımından respublikada investisiyaların və ixracın səmərəli təşviq mexanizminin işə salınması, sahibkarlıq subyektlərində yoxlamaların dayandırılması müddətinin 2021-ci ilədək uzadılması və digər belə tədbirlərin aktuallığı böyükdür. Eyni zamanda, sahibkarlara dəstək mexanizmi də getdikcə təkmilləşdirilir.

**“İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu fəaliyyət göstərdiyi dövrdə investisiya layihələrinin ümumi dəyəri 4,9 milyard manat olan 35 mindən çox sahibkara 2,2 milyard manat güzəştli kredit verilib. 2018-ci ilin sonunadək geri qaytarılan vəsaitlər hesabına sahibkarlara minimum 170 milyon manat güzəştli kreditin verilməsi təmin ediləcək. Dövlət başçısının “Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında” 2018-ci il 31 iyul tarixli Fərmanı ilə Sahibkarlığa Kömək Milli Fondu ləğv edilərək İqtisadiyyat Nazirliyinin tabeliyində Sahibkarlığın İnkişafı Fondu publik hüquqi şəxsi yaradılıb və “Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun vəsaitindən istifadə Qaydası” təsdiq edilib. Sənədə əsasən, güzəştli kreditlərdən daha səmərəli istifadə məqsədilə Sahibkarlığın İnkişafı Fondunun kreditlərinin illik faiz dərəcəsi 6 faizdən 5 faizə endirilib. Eyni zamanda, yeni qaydalarda ortahəcmli kreditlərin hədləri dəyişdirilərək 1 000 000 manatadək artırılıb.**

**Ardıcıl şəkildə həyata keçirilən bu kimi tədbirlər sayəsində dövlət-biznes tərəfdaşlığında qarşılıqlı inam daha da artıb, bu münasibətlər gələcək iqtisadi inkişafın təməl prinsipinə çevrilib. Artıq respublikamızda güclü sahibkarlar ordusu formalaşıb”,** - deyə A.Hüseynov vurğulayıb.

Millət vəkili belə bir məqamı nəzərə çatdırıb ki, Azərbaycan Respublikası Prezidentinin güclü siyasi iradəsi və davamlı dəstəyi sayəsində aparılan kompleks iqtisadi islahatlar digər nüfuzlu beynəlxalq reytinqlərlə yanaşı, “Doing Business 2019” hesabatının da bütün indikatorlarını əhatə edib. Nəticədə, 2017-ci il və 2018-ci ilin ilk 4 ayında təkcə bu hesabat üzrə 30-a yaxın normativ-hüquqi akt qüvvəyə minməklə 70-dən çox islahat tədbiri həyata keçirilib və qeydə alınması üçün “Doing Business” komandasına təqdim olunub. Millət vəkilinin sözlərinə görə, aparılan islahatlar nəticəsində vətəndaşların və sahibkarların məmnunluğunun artırılması, bu sahədə şəffaflığın təmin olunması ilə yanaşı, müxtəlif sektorlar üzrə inzibati prosedurların sayının və xərclərin minimuma endirilməsi, dövlət xidmətlərinin göstərilməsində keyfiyyətin daha da yüksəlməsinə nail olunub.

## “DOİNG BUSİNESS 2019” HESABATINDA YÜKSƏK DƏYƏRLƏNDİRİLƏN UĞURLAR ÖLKƏDƏ APARILAN İSLAHATLARIN CƏMİYYƏTİN BÜTÜN TƏBƏQƏLƏRİNİN MƏNAFELƏRİNİ ƏKS ETDİRDİYİNİ GÖSTƏRİR

Mövzu ilə bağlı fikirlərini ifadə edən Milli Məclisin deputatı Rauf Əliyev Dünya Bankının ənənəvi “Doing Business” hesabatının çox obyektiv meyarlarla hazırlandığını və beynəlxalq miqyasda böyük maraqla izlənildiyini vurğulayıb. Dünya Bankının hər il hazırladığı “Doing Business” hesabatının biznes mühitinin asanlığının qiymətləndirilməsi üçün dünyada ən vacib və etibarlı reytinq göstəricisi hesab olunduğunu deyən R.Əliyev vurğulayıb: **“Doing Business” komandası ölkələr üzrə aparılan islahatları həm dövlət, həm də çoxsaylı biznes nümayəndələrindən, habelə məşhur konsaltinq şirkətlərindən toplanan sorğulara verilən cavablar əsasında qiymətləndirir. Aparılan islahatların yoxlanılması məqsədilə ölkələrə ayrı-ayrılıqda xüsusi ekspert missiyaları göndərilir, islahatların real praktikada tətbiqi yerində müvafiq meyarlarla araşdırılır. Nəticədə, hər bir ölkənin həm ümumi, həm də 10 indikator üzrə xüsusi qiymət balı hesablanaraq mövqeləri müəyyən edilir. “Doing Business” hesabatı xarici investorlar tərəfindən biznes mühitinə dair etibarlı mənbə kimi istinad edilən əsas reytinq göstəricisi olmaqla yanaşı, digər beynəlxalq təşkilatlar tərəfindən hazırlanan hesabatlarda (“Qlobal Rəqabətlilik Hesabatı”, “Qlobal İnnovasiyalar İndeksi”, “İqtisadi Azadlıq İndeksi”, “Qlobal İmkanlar İndeksi” və s.) baza rolunu oynayır”.**

Millət vəkilinin sözlərinə görə, Dünya Bankının beynəlxalq səviyyədə böyük nüfuza malik hesabatında yüksək dəyərləndirilən uğurlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasətin alternativsiz olduğunu və aparılan islahatların cəmiyyətin bütün təbəqələrinin, o cümlədən biznes subyektlərinin mənafelərini əks etdirdiyini bir daha göstərir.



*__Rauf Əliyev:__ Hesabata əsasən, ölkəmiz “Tikinti üçün icazələrin alınması” və “Kreditlərin alınması” indikatorlarının hər biri üzrə 100 pillə irəliləyərək ciddi nailiyyət əldə edib*

**“Hesabata əsasən, ölkəmiz “Tikinti üçün icazələrin alınması” və “Kreditlərin alınması” indikatorlarının hər biri üzrə 100 pillə irəliləyərək ciddi nailiyyət əldə edib. Bunlarla yanaşı, “Kiçik investorların maraqlarının qorunması” indikatoru üzrə dünyada 2-ci yerə yüksəlməyə, “Biznesə başlama” (9-cu yer) indikatoru üzrə isə ilk onluğa düşməyə nail olunub. Bütövlükdə “Doing Business 2019” hesabatının 10 indikatorundan 8-i üzrə mühüm irəliləyiş qeydə alınıb. Eyni zamanda, əmək bazarının tənzimlənməsi indikatoru üzrə də aparılmış islahatlar Dünya Bankının ekspertləri tərəfindən qəbul edilib”,** - deyə millət vəkili bildirib.

R.Əliyev mövzu ilə bağlı fikirlərini hesabatdan gətirdiyi aşağıdakı sitatla tamamlayıb: **“Avropa və Mərkəzi Asiya bölgəsinə daxil olan Azərbaycan ən yaxşı təkmilləşdirmə göstəricilərinə malik 10 ölkə arasında və qlobal səviyyədə rekorda nail olaraq səkkiz sahə üzrə islahatlar aparmaqla, 2017-2018-ci illərdə biznes fəaliyyətinin daha da asanlaşdırılmasını təmin edib”.**

**Mübariz ABDULLAYEV**

# Şeyxülislam Allahşükür Paşazadə İspaniyada beynəlxalq konfransda iştirak edəcək



Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə noyabrın 3-də İspaniya Krallığına səfərə yola düşür.

QMİ-nin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfərdə məqsəd Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Qafqaz Müsəlmanları İdarəsi, İspaniyanın Ədliyyə Nazirliyi və Evsen Fondunun birgə təşkilatçılığı ilə “Dinlərarası dialoqun sülhə və qarşılıqlı anlaşmaya töhfəsi” mövzusunda keçiriləcək beynəlxalq konfransda iştirak etməkdir.

Konfransda Azərbaycanı hökumət üzvləri, parlament deputatları, tanınmış elm və din xadimləri, habelə Rus Pravoslav kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının Arxiyepiskopu Aleksandr İşein, Dağ yəhudiləri icmasının başçısı Milix Yevdayev və Katolik Kilsəsinin Azərbaycandakı yepiskopu Vladimir Fekete təmsil edəcəklər.

İspaniya Krallığı Ədliyyə Nazirliyinin təşkilati dəstəyi ilə baş tutan bu beynəlxalq tədbirdə İspaniyanın yüksək səviyyəli dövlət, hökumət nümayəndələri və din xadimləri, o cümlədən Madrid Arxiyepiskopu Karlos Siyerra iştirak edəcək.

İki gün davam edəcək konfransda 40-dək çıxış və məruzə dinləniləcək.

Ümumilikdə 1000-ə yaxın nümayəndənin iştirak edəcəyi konfrans yekun sənədin qəbulu ilə başa çatacaq.

Səfər çərçivəsində Azərbaycan nümayəndə heyətinin İspaniya hökumətinin üzvləri, ölkənin tanınmış ictimai-siyasi xadimləri ilə görüşləri də nəzərdə tutulur.

# Məhəmməd Cavad Zərif: Regionda təhlükəsizliyin davamlılığı üçün İran, Azərbaycan və Türkiyə əməkdaşlığı davam etdirəcəklər



Regionda təhlükəsizliyin davamlı xarakter alması üçün İran, Azərbaycan və Türkiyə qarşılıqlı əməkdaşlıq əlaqələrini davam etdirəcəklər.

AZƏRTAC xəbər verir ki, bu sözləri İranın xarici işlər naziri Məhəmməd Cavad Zərif İRNA agentliyinə açıqlamasında deyib.

Nazir hər üç ölkənin xarici işlər nazirlərinin İstanbulda keçirilən VI görüşünün çox səmərəli olduğunu bəyan edərək vurğulayıb ki, İran Türkiyə və Azərbaycan ilə iqtisadi, siyasi, nəqliyyat və bank sahələrində əməkdaşlıq əlaqələrini daha da genişləndirəcək. Azərbaycan ilə nəqliyyat sahəsində birgə layihələrin həyata keçirildiyini deyən M.C.Zərif bu layihələrin uğurla başa çatacağını bildirib. Hər üç ölkə regiona sirayət etməyə çalışan terrorçuluqla birgə mübarizə aparmaqda qərarlıdır.

Məhəmməd Cavad Zərif Türkiyənin və Azərbaycanın müstəqil xarici siyasət yürütmələrini yüksək qiymətləndirib və regiona başqa dövlətlərin müdaxiləsini qeyri-məqbul hesab edib. Nazir bildirib ki, İran, Türkiyə və Azərbaycanın xarici işlər nazirlərinin VII görüşü Tehranda keçiriləcək.

# Azərbaycanda milli mədəniyyətə, ədəbi irsə daim yüksək səviyyədə qayğı göstərilir

*Prezident İlham Əliyevin tapşırığına əsasən şair Mikayıl Müşfiqin qalıqlarının tapılması haqqında KİV-lərdə yayılan materialların araşdırılması ilə bağlı işçi qrupunun yaradılması ölkəmizdə mədəni, ədəbi irsimizə, onun nümayəndələrinə yüksək dəyər verildiyinin göstəricisidir*

Məlum olduğu kimi, son zamanlar kütləvi informasiya vasitələrində 1938-ci ildə repressiya qurbanı olmuş və güllələnmiş şair Mikayıl Müşfiqin qalıqlarının tapılması ilə bağlı xəbərlər yayılıb. Hazırda tapılan qalıqların Azərbaycan ədəbiyyatında özünəməxsus yerə malik, lirik şeirləri ilə qəlblərdə yaşayan Mikayıl Müşfiqə aid olub-olmaması ilə bağlı müzakirələr aparılır. Məsələ ilə bağlı açıqlama verən Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov bildirib ki, Azərbaycan poeziyasının inkişafında böyük rol oynamış, Stalin repressiyasının qurbanı olmuş və 1938-ci ildə güllələnmiş şair Mikayıl Müşfiqin qalıqlarının tapılması ilə bağlı son zamanlar kütləvi informasiya vasitələrində yayılan materiallar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqətini cəlb edib. Əli Həsənov qeyd edib ki, cənab Prezident məsələnin araşdırılması üçün Milli Elmlər Akademiyası, Səhiyyə, Mədəniyyət nazirlikləri və digər əlaqədar qurumların nümayəndələrindən ibarət işçi qrupunun yaradılması barədə göstəriş verib. Tapşırığa əsasən, Mikayıl Müşfiqə məxsus olduğu ehtimal edilən qalıqlar müvafiq qaydada DNK ekspertizasından keçiriləcəkdir. Əgər qalıqların həqiqətən ona məxsus olduğu təsdiqini taparsa, şairin yenidən dəfn olunması ilə bağlı bütün zəruri tədbirlər görüləcəkdir. Qeyd edək ki, dövlətimizin başçısının tapşırığına əsasən şair Mikayıl Müşfiqin qalıqlarının tapılması haqqında kütləvi informasiya vasitələrində yayılan materialların araşdırılması ilə bağlı yaradılmış işçi qrupu artıq fəaliyyətə başlayıb və onun ilk iclası keçirilib.




Yeri gəlmişkən, Azərbaycan Prezidenti İlham Əliyev 2017-ci ilin fevralında Bakının Yasamal rayonu ərazisində keçmiş "Statistika dairəsi" adlanan yerdə Mikayıl Müşfiqin abidəsinin demontajı ilə bağlı məsələ haqqında da göstəriş vermişdi. Ölkə başçısının göstərişi ilə məsələ araşdırılmış və günahkarlar cəzalandırılmış, abidə isə dərhal öz yerində bərpa olunmuşdu. Həmin göstərişin qısa zamanda icrasından sonra Prezident İlham Əliyev abidəni ziyarət edib, önünə gül dəstəsi qoymuşdu.



***Nizami Cəfərov:*** *Mikayıl Müşfiq ilə bağlı verilən qərar xalqımız tərəfindən yüksək dəyərləndirilir*

Milli Məclisin deputatı, akademik Nizami Cəfərov dövlət başçısının bu addımını mədəniyyət sahəsinə böyük qayğı kimi dəyərləndirib. O bildirib ki, ölkəmizdə ədəbiyyat nümayəndələri hər zaman dövlətimizin diqqət və qayğısı ilə əhatə olunub: **"Milli ədəbiyyat nümayəndələrinin nəşinin ölkəmizə gətirilməsi, öz Vətənlərində dəfn olunması da müqəddəs bir ənənədir. Belə ki, məhz Ulu öndər Heydər Əliyevin təşəbbüsü və səyi ilə 1982-ci ildə uzaq Sibirin əlçatmaz yerlərindən dahi şairimiz Hüseyn Cavidin nəşinin qalıqları doğma yurdu Naxçıvana gətirilib və dəfn olunub".**

Millət vəkilinin sözlərinə görə, Ulu öndər Heydər Əliyevin formalaşdırdığı mədəniyyət siyasətinin ən mühüm istiqamətlərindən birini indiyə qədər xalqın yaratmış olduğu mədəniyyətə xüsusi qayğının göstərilməsi təşkil edir. Ölkəmizdə tarix boyu Azərbaycan xalqının yaratdığı mədəniyyətin qorunması, ədəbiyyatımızın klassiklərinin təbliği, eləcə də tarixi abidələrimizin tanıdılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir.

N.Cəfərov qeyd edib ki, Ulu öndərin əsasını qoyduğu bu siyasət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. **"Əlbəttə ki, Mikayıl Müşfiq ilə bağlı verilən qərar xalqımız tərəfindən yüksək dəyərləndirilir. Çünki Mikayıl Müşfiq yaradıcılığı xalqımız tərəfindən sevilir. O, repressiya qurbanı kimi gənc yaşlarında dünyasını dəyişsə də, yaratdığı əsərlər bu günümüzdə də yaşayır, öyrənilir, şeirlərinə bəstələnmiş mahnılar dillər əzbəridir. Ona görə də dövlətimizin başçısının tapşırığına əsasən şair Mikayıl Müşfiqin qalıqlarının tapılması haqqında KİV-lərdə yayılan materialların araşdırılması ilə bağlı işçi qrupunun yaradılması çox önəmlidir"**, - deyə millət vəkili vurğulayıb.

**"Azərbaycanda mədəniyyət sahəsinə, ədəbiyyata dövlət qayğısı çox yüksəkdir. Prezident İlham Əliyev hər zaman bu sahələrə xüsusi diqqət yetirir. Prezident İlham Əliyevin tapşırığına əsasən şair Mikayıl Müşfiqin qalıqlarının tapılması haqqında KİV-lərdə yayılan materialların araşdırılması ilə bağlı işçi qrupunun yaradılması da ölkəmizdə dövlət başçısı səviyyəsində mədəni, ədəbi irsimizə, onun nümayəndələrinə nə qədər yüksək dəyər verdiyinin göstəricisidir".** Bu fikirləri isə Milli Məclisin deputatı Sona Əliyeva deyib.



***Sona Əliyeva:*** *Mikayıl Müşfiqə göstərilən ehtiram bütövlükdə Azərbaycan ədəbiyyatına göstərilən ehtiramdır*

Bu siyasətin əsasının Ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulduğunu deyən S.Əliyeva bildirib ki, hələ sovetlər birliyi dönəmində Ulu öndərimiz Azərbaycan mədəniyyətinin, ədəbiyyatının himayədarı kimi şair və yazıçılarımızı təzyiqlərdən qoruyub, onların yüksək dövlət mükafatları ilə təltif edilmələrinə nail olub. Böyük şairimiz Hüseyn Cavidin nəşinin uzaq Sibirdən vətənimizə gətirilərək dəfn edilməsi də bütövlükdə ədəbi irsimizə göstərilən böyük ehtiramdır. Bu mənada, Prezident İlham Əliyevin Mikayıl Müşfiqlə bağlı verdiyi tapşırıq çox təqdirəlayiqdir. Millət vəkili onu da deyib ki, Mikayıl Müşfiqin xatirəsini əbədiləşdirmək üçün Bakıda büstü qoyulub, məktəbə, küçəyə və meydana adı verilib. Onun "Yenə o bağ olaydı", "Oxu, tar" və bir sıra başqa əsərləri Azərbaycan poeziya xəzinəsinin inciləri sırasındadır.

**"Müəyyən bir müddət idi ki, sevimli şairimiz Mikayıl Müşfiqin qalıqlarının tapılması ilə bağlı məsələ ətrafında gedən müzakirələrin şahidi olurduq. Möhtərəm Prezidentimizin göstərişi ilə yaradılmış müvafiq işçi qrupu bütün müəmmalara və suallara aydınlıq gətirəcək. Bu məsələyə göstərdiyi həssaslığa görə möhtərəm Prezidentimizə təşəkkür edirik. Gənc yaşlarında repressiya qurbanı olmuş Mikayıl Müşfiqə göstərilən ehtiram bütövlükdə Azərbaycan ədəbiyyatına göstərilən ehtiramdır"**, - deyə millət vəkili qeyd edib.

**Nardar BAYRAMLI**

# Kocaelinin Körfəz şəhər bələdiyyəsinin nümayəndə heyəti AZƏRTAC-da olub



Azərbaycanda səfərdə olan Türkiyənin Kocaeli vilayətinin Körfəz şəhər bələdiyyəsinin sədri İsmayıl Baranın rəhbərlik etdiyi nümayəndə heyəti ilə noyabrın 2-də AZƏRTAC-da görüş keçirilib.

AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov Ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamını xatırladaraq Azərbaycan ilə Türkiyə arasında qardaşlıq münasibətlərinin böyük tarixə malik olduğunu bildirib. Vurğulayıb ki, dövlət başçıları İlham Əliyev ilə Rəcəb Tayyib Ərdoğan arasında şəxsi dostluq münasibətləri ölkələrimizi və xalqlarımızı bir-birinə daha sıx bağlayır. Ölkələrimiz arasında bütün istiqamətlərdə olduğu kimi, media sahəsində də əlaqələr yüksək səviyyədədir. AZƏRTAC və Anadolu uzun illərdir həm ikitərəfli qaydada, həm də beynəlxalq media qurumları çərçivəsində sıx əməkdaşlıq edir, geniş informasiya mübadiləsi aparırlar.

Xocalı soyqırımının 26-cı ildönümü ilə əlaqədar olaraq Körfəz şəhərində "Xocalı şəhidləri" abidəsinin ucaldılmasının ölkəmizdə rəğbətlə qarşılandığını və yüksək qiymətləndirildiyini qeyd edən Aslan Aslanov Körfəz bələdiyyəsinin sədri İsmayıl Barana bu təşəbbüsə, habelə azərbaycanlı tələbələrə göstərilən yardıma görə minnətdarlığını bildirib.

İsmayıl Baran iki qardaş ölkənin hər zaman bir-birini sıx dəstəklədiyini, Türkiyə və Azərbaycan arasında əlaqələrin digər dövlətlər üçün nümunə olduğunu deyib. Türkiyənin Xocalı soyqırımını heç vaxt unutmayacağını deyən bələdiyyə sədri "Xocalı şəhidləri" abidəsinin bu faciənin gələcək nəslin yaddaşında həkk olunması məqsədilə ucaldıldığını vurğulayıb.

Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyasının sədri Bilal Dündar Dağlıq Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində rəhbərlik etdiyi qurumun gördüyü işlərdən danışıb. Bildirib ki, Kocaeli şəhərindəki Heydər Əliyev Mədəniyyət Evində ermənilərin tarix boyu azərbaycanlılara qarşı törətdiyi soyqırımını və terror aktlarını əks etdirən muzey fəaliyyət göstərir. Muzeydə bununla bağlı çoxsaylı sənədlər və fotolar toplanıb.

Bilal Dündar Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyasının fəaliyyətini mütəmadi işıqlandırdığına görə AZƏRTAC-ın rəhbərliyinə minnətdarlığını ifadə edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan və Qazaxıstan Mərkəzi Seçki komissiyaları arasında Anlaşma Memorandumu imzalanıb

Noyabrın 1-2-də Qazaxıstanın paytaxtı Astanada keçirilən "Seçkilərdə müasir texnologiyaların rolu: standartların təkmilləşdirilməsi, ictimai etimad" mövzusunda beynəlxalq konfrans öz işini yekunlaşdırıb.




AZƏRTAC xəbər verir ki, konfransda iştirak edən Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov səfər çərçivəsində qazaxıstanlı həmkarı ilə yanaşı, bir sıra ölkələrin seçki idarəetmə qurumlarının rəhbərləri və digər rəsmi şəxslərlə görüşlər keçirib, seçkilərlə bağlı müxtəlif sahələrdə əməkdaşlığın inkişaf perspektivləri və maraq doğuran məsələlər ətrafında müzakirələr aparılıb.





Noyabrın 2-də Astanada Azərbaycan və Qazaxıstan Mərkəzi Seçki komissiyaları arasında Anlaşma Memorandumu da imzalanıb. Memorandumu Azərbaycan Mərkəzi Seçki Komissiyası adından sədr Məzahir Pənahov və Qazaxıstan Mərkəzi Seçki Komissiyası adından sədr Berik İmaşev imzalayıblar.

Anlaşma Memorandumu bütün sahələrdə əlaqələri ildən-ilə genişlənən Azərbaycan və Qazaxıstan ali seçki qurumları arasında münasibətlərin intensivləşdirilməsi və təcrübə mübadiləsinin aparılması istiqamətində qarşılıqlı faydalı əməkdaşlığın daha da dərinləşdirilməsi məqsədi daşıyır.

# Son illər Azərbaycanda qeyri-neft sektorunun sürətli inkişafı məmnunluq doğurur



***Milli Məclisin deputatı İlham Məmmədov www.yap.org.az saytına müsahibə verib:***

**- İlham müəllim, "Doing Business 2019" hesabatında Azərbaycan ümumi reytinqdə yeni rekorda imza atıb. Qazanılan bu uğur hazırda cəmiyyətimizdə geniş müzakirə olunur. Bu barədə sizin də fikirlərinizi bilmək istərdik...**

- Ümumiyyətlə, müstəqil Azərbaycan ötən dövr ərzində böyük inkişaf yolu keçib. Ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş inkişaf strategiyası Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Son illər Azərbaycanda aparılan islahatlar daha da dərinləşib və mahiyyətcə yeni xarakter kəsb edib. Aparılan iqtisadi islahatlar nəticəsində ölkədə maliyyə sabitliyi və iqtisadi artım bərpa olunub, bir çox sahələrdə, xüsusilə kənd təsərrüfatı, qeyri-neft sənayesi və digər sektorlarda əhəmiyyətli irəliləyiş əldə edilib. Dövlətimizin başçısı tərəfindən ölkədə sahibkarlığa dəstək məqsədilə biznes mühitinin bütün sahələri, xüsusilə biznesə başlama, tikinti üçün icazələrin alınması, elektrik təchizatı şəbəkələrinə qoşulma, maliyyə mənbələrinə çıxış imkanlarının artırılması, vergilərin ödənilməsi, əmlakın qeydiyyatı, xarici ticarətin aparılması üzrə əhəmiyyətli irəliləyiş baş verib.

Bütün bunların nəticəsidir ki, aparılan islahatlar, öz növbəsində, "Doing Business 2019" hesabatında Azərbaycanın ümumi reytinqdə yeni rekorda imza atmasına, eləcə də əksər indikatorlar üzrə mövqeyinin daha üst səviyyəyə qalxmasına imkan verib. Belə ki, 2018-ci il oktyabrın 31-də Dünya Bankı tərəfindən yayılan "Doing Business 2019" hesabatında Azərbaycan dünyanın 10 ən islahatçı dövləti siyahısına daxil edilərək dünyanın ən çox islahat aparan ölkəsi elan olunub. Yeni hesabatda Azərbaycanın mövqeyi 2017-ci illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb, dünyanın bir çox ölkələrini geridə qoymaqla Müstəqil Dövlətlər Birliyi ölkələri arasında lider mövqeyə yüksəlib.

Hesabata əsasən ölkəmiz "Tikinti üçün icazələrin alınması" və "Kreditlərin alınması" indikatorlarının hər biri üzrə 100 pillə irəliləyərək ciddi nailiyyət əldə edib. Bunlarla yanaşı, "Kiçik investorların maraqlarının qorunması" indikatoru üzrə dünyada 2-ci yerə yüksəlməyə, "Biznesə başlama" (9-cu yer) indikatoru üzrə isə ilk onluğa düşməyə nail olunub. Bütövlükdə "Doing Business 2019" hesabatının 10 indikatorundan 8-i üzrə mühüm irəliləyiş qeydə alınıb. Eyni zamanda, əmək bazarının tənzimlənməsi indikatoru üzrə də aparılmış islahatlar Dünya Bankının ekspertləri tərəfindən qəbul edilib.

Bu uğurlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasətin alternativsiz olduğunu və aparılan islahatların cəmiyyətin bütün təbəqələrinin, o cümlədən biznes subyektlərinin mənafelərini əks etdirdiyini bir daha göstərir.

**- Həyata keçirilən islahatlar qeyri-neft sektorunda da ciddi nəticələr verməkdədir. Bu sahədə əldə olunan nailiyyətləri necə qiymətləndirirsiniz?**

- Əlbəttə ki, hazirkı şəraitdə hər bir ölkənin gücü, ümumi iqtisadi potensialı, qlobal miqyasdakı yeri bir sıra digər parametrlərlə yanaşı, eyni zamanda, sənaye inkişafı ilə ölçülür. Güclü sənaye potensialına malik olan ölkələr həm daxili tələbatlarını yerli istehsal hesabına ödəyərək maliyyə vəsaitlərini qoruyurlar, həm də xarici bazarlarda böyük həcmlərdə məhsullarla təmsil olunaraq özlərinə valyuta axınını təmin edirlər.

Sənaye sektorunun inkişafının iqtisadi-siyasi önəmi ilə yanaşı, sosial əhəmiyyəti də kifayət qədər böyükdür. Belə ki, yüksək əmək tutumuna malik sənaye istehsalatları əhalinin məşğulluğunun təmin olunmasında və beləliklə də, yoxsulluğun aradan qaldırılmasında mühüm rol oynayırlar.

Ölkədə qeyri-neft sənayesinin inkişafında son illərdə bütün respublika boyu yaradılan müasir infrastruktur fundamental amillərdən biri qismində çıxış edir. Sənaye inkişafını güclü infrastruktur təminatı olmadan təsəvvür etmək mümkün deyil. Son illərdə əsaslı dövlət vəsaiti qoyuluşu hesabına Azərbaycan infrastruktur təminatı baxımından dünyanın ən qabaqcıl ölkələri səviyyəsinə yüksəlib ki, bunun da sayəsində respublikamızda sənaye quruculuğu üçün geniş perspektivlər açılıb.

Respublikamızda müasir çağırışlar nəzərə alınmaqla qeyri-neft sənayesinin inkişafına göstərilən diqqət öz bəhrəsini verir. Əlamətdar haldır ki, son illərdə Azərbaycanda ən yaxşı inkişaf göstəriciləri məhz qeyri-neft sənayesində qeydə alınır.

**- Bu gün həmçinin ölkəmizdə uğurlu sosial siyasət həyata keçirilir. Bu barədə nə deyə bilərsiniz?**

- Təbii ki, ölkəmizdə həyata keçirilən islahatlar sosial sahədə də özünün müsbət təsirlərini göstərib. Pensiyaçıların və digər sosial qrupların sosial müdafiəsinin gücləndirilməsi, maaşların davamlı artımı, tələbələrin təqaüdlərinin artırılması, təhsil, səhiyyə və mədəniyyət işçilərinə dövlət qayğısının gücləndirilməsi, məcburi köçkünlər üçün yeni qəsəbələrin salınması, əlillərin və şəhid ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində işlər davam etdirilib. Ölkə iqtisadiyyatında iqtisadi göstəricilərlə yanaşı, həm də sosial sahədə müsbət artım meyilləri müşahidə olunub.

Xatırladım ki, cari ilin 9 ayında orta aylıq əməkhaqqı 541 manata çatıb. Əhalinin gəlirləri 9,5 faiz artıb, inflyasiya 2,6 faiz təşkil edib. Bu isə əhalinin gəlirlərinin qiymət artımını 4 dəfə üstələdiyini göstərir. Yəni, hər il olduğu kimi, əhalinin gəlirləri inflyasiyanı üstələyir və beləliklə bu, bilavasitə insanların yaşayış səviyyəsinə müsbət təsir göstərir.

Hazırda ölkəmizdə işsizlik səviyyəsi 5 faiz təşkil edir ki, bu da dünya göstəricisindən xeyli aşağıdır. Ötən 9 ayda 100 mindən çox yeni iş yeri açılıb ki, onlardan 86 mini daimi iş yeridir.

Bütövlükdə, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın fəaliyyətində sosial məsələlərin həlli, yeni-yeni sosial təşəbbüslərin irəli sürülərək reallaşdırılması xüsusi yer tutur. İnsanların daha da yaxşı yaşaması və onların illik gəlirlərinin artmasına dövlət dəstəyinin gücləndirilməsi hökumətin diqqət yetirdiyi əsas prioritetlərdən biridir. Dövlət başçısının qeyd etdiyi kimi, respublikamızın maliyyə resurslarının və büdcə gəlirlərinin artması davam etdikcə, sosial sahəyə ayrılan vəsaitlərin həcmi də artacaq, maaş və pensiyaların, təqaüdlərin artırılması siyasəti davam etdiriləcək.

# Azərbaycanın "Doing Business 2019" hesabatında irəliləyişi olduqca böyük nailiyyətdir

**"Davamlı və hərtərəfli inkişafı hədəfləyən siyasət həyata keçirən Azərbaycan hazırda bütün dünyada islahatçı ölkə kimi tanınır. Bunu Dünya Bankının bu günlərdə təqdim olunan "Doing Business 2019" hesabatından bir daha görmək mümkündür. Bəhs olunan hesabatda Azərbaycan 10 ən islahatçı dövlət siyahısına daxil edilərək dünyanın ən çox islahat aparan ölkəsi elan olunub. Yeni hesabatda respublikamız ötən illə müqayisədə öz mövqeyini 32 pillə yaxşılaşdırmağa nail olub və 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb. Bu nəticə ilə Azərbaycan dünyanın bir sıra ölkələrini geridə qoyub və MDB məkanında lider mövqeyə yüksəlib".** Bu fikirləri qəzetimizə açıqlamasında Dünya Bankının "Doing Business 2019" hesabatını dəyərləndirən Yeni Azərbaycan Partiyası (YAP) Abşeron rayon təşkilatının sədri, iqtisad üzrə fəlsəfə doktoru Bilman Vəliyev ifadə edib.



O bildirib ki, Azərbaycanın uğurlarının Dünya Bankının nüfuzlu hesabatında yüksək dəyərləndirilməsi ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan məqsədyönlü siyasətə verilən qiymətdir. Dünya Bankının "Doing Business 2019" hesabatında yüksək dəyərləndirilən uğurlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasətin alternativsiz olduğunu və aparılan islahatların cəmiyyətin bütün təbəqələrinin, o cümlədən biznes subyektlərinin mənafelərini əks etdirdiyini bir daha göstərir.

B.Vəliyev bildirib ki, son 15 ildə dünya miqyasında Azərbaycan kimi yüksək sosial-iqtisadi inkişaf göstəricilərinə nail olan ölkələrin sayı çox azdır. Respublikamız qısa müstəqillik tarixində özünün iqtisadi və maliyyə müstəqilliyini təmin etməyə nail olub. Bu uğuru şərtləndirən amillər sırasında ölkədə Prezident İlham Əliyevin siyasi iradəsi əsasında reallaşdırılan islahatların önəmini xüsusi qeyd etmək lazımdır. Fikirlərinə davam edən B.Vəliyev vurğulayıb: **"Bu islahatların böyük qismi isə respublikamızda qeyri-neft sektorunun, o cümlədən də özəl bölmənin üstün inkişafının təmin edilməsinə hesablanıb. Həyata keçirilən islahatlar, öz növbəsində, "Doing Business 2019" hesabatında Azərbaycanın ümumi reytinqdə yeni rekorda imza atmasına, eləcə də əksər indikatorlar üzrə mövqeyinin daha üst səviyyəyə qalxmasına imkan verib. Hesabata əsasən, ölkəmiz "Tikinti üçün icazələrin alınması" və "Kreditlərin alınması" indikatorlarının hər biri üzrə 100 pillə irəliləyərək ciddi nailiyyət əldə edib. Bunlarla yanaşı, "Kiçik investorların maraqlarının qorunması" indikatoru üzrə dünyada 2-ci yerə yüksəlməyə, "Biznesə başlama" (9-cu yer) indikatoru üzrə isə ilk onluğa düşməyə nail olunub. Bütövlükdə, respublikamızda "Doing Business 2019" hesabatının 10 indikatorundan 8-i üzrə mühüm irəliləyiş qeydə alınıb".**

# Tomas Qreminqer: Dağlıq Qarabağ münaqişəsinin bütün tərəflərinin konstruktiv məcrada işləmələri son dərəcə vacibdir



Dağlıq Qarabağ münaqişəsinin bütün tərəflərinin konstruktiv məcrada işləmələri son dərəcə vacibdir. AZƏRTAC xəbər verir ki, bu sözləri ATƏT-in Baş katibi Tomas Qreminqer Moskvada keçirilən brifinqdə Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə danışıqlar prosesinin bərpa edilməsi barədə sualı cavablandırarkən söyləyib.

Konstruktiv və müntəzəm danışıqlara kömək edəcək ab-havanın yaradılmasının əhəmiyyətini vurğulayan T.Qreminqer deyib: **"Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə müəyyən olunmuş format mövcuddur. Minsk qrupunun həmsədrlərinin üçü də oradadır. İndi biz hələlik burada çıxış edirik, onlar həmin regiona səfər edirlər. Düşünürəm ki, Düşənbə görüşü çox böyük müvəffəqiyyətlə keçdi. Bu görüş bütün nümayəndələr arasında etimadı bərpa etməyə imkan verəcək. Ümidvaram ki, ATƏT-in üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının Milan görüşü həmsədrlərin işinə dəstək göstərdiyimizi ifadə etməyə, habelə bütün tərəfləri bu məsələnin həllinə kömək etmək üçün özündə siyasi iradə tapmağa çağırmağımıza imkan verəcək. Zənnimcə, ritorikanın qızışdırılmasına yol verməmək və təmas xəttində gərginliyi azaltmaq üçün münaqişə tərəflərinin konstruktiv məcrada işləmələri son dərəcə vacibdir. Həmçinin hesab edirəm ki, konstruktiv və müntəzəm danışıqlara kömək edəcək ab-havanın yaradılması üçün bu vaxtdan istifadə etmək son dərəcə əhəmiyyətlidir. Belə ab-hava mürəkkəb, amma uzunmüddətli və hərtərəfli sülh əldə etməkdən ötrü bütün tərəflərin lazımlı kompromislərə gedə bilməsi üçün olduqca vacibdir".**

# Belçika parlamentinin üzvünün Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfəri beynəlxalq hüquq normalarının kobud surətdə pozulmasıdır

*Bu cür səfərlər faktiki olaraq separatizmin dəstəklənməsinə xidmət edir*



Regional və beynəlxalq təhlükəsizliyin təmin olunması, təhdid ünsürlərinin aradan qaldırılması müasir dövrdə strateji əhəmiyyətə malik olan məsələlərdəndir. Sirr deyil ki, separatizm və təcavüzkar siyasət də regional və beynəlxalq təhlükəsizliyə ciddi təhdidlər yaradır, milli dövlətlərin ərazi bütövlüyü və suverenliyinə qarşı yönəlmiş destruktiv faktor kimi çıxış edir. Bu məqamda vurğulamaq lazımdır ki, Avrasiyanın mühüm geostrateji məntəqələrindən biri olan Cənubi Qafqaz regionunda isə Ermənistanın işğalçı siyasəti bölgənin təhlükəsizliyini ciddi təhdidlərlə qarşı-qarşıya qoyur. Xüsusilə də, Ermənistanın Azərbaycanın 20 faiz torpaqlarını işğal etməsi nəticəsində yaranmış qondarma, separatçı "Dağlıq Qarabağ" rejiminin mövcudluğu beynəlxalq hüquq normalarının kobud surətdə pozulmasının bariz təzahürüdür. Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarına bir sıra xarici şəxslərin səfərlərinin təşkil edilməsi də işğal altındakı Dağlıq Qarabağda yaradılan qondarma rejimi təbliğ etməyə, eyni zamanda, separatizmin təşviq olunmasına xidmət edir. Əlbəttə, Azərbaycan həmişə bu cür qanunazidd hərəkətlərin cavabını verir, müvafiq tədbirlər görür. Azərbaycanın işğal altında olan ərazilərinə qeyri-qanuni səfər edən şəxslər ölkə qanunvericiliyinə uyğun olaraq məsuliyyətə cəlb olunur, onların ölkəmizə gəlişinə qadağa qoyulur.

Bu məqamda qeyd etmək lazımdır ki, Belçika Federal Parlamentinin üzvü, İslahatçılar Hərəkatı Partiyasının beynəlxalq əlaqələr üzrə sədri Jan Jak Flaonun və onun müavini Culi Szmayın Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərinə səfər etmələri qanunsuz addım olmaqla təxribatçı hərəkətlər sırasındadır. Artıq Azərbaycan Xarici İşlər Nazirliyi Belçika parlamentinin üzvünün işğal olunmuş ərazilərimizə qanunsuz səfərini araşdırır. Nazirlikdən verilən məlumatda qeyd olunur ki, qanunsuz səfərə görə onların adlarının "arzuolunmaz şəxslərin siyahısı"na daxil edilməsinə dair qərar qəbul ediləcək.

Əlbəttə, Azərbaycan ictimaiyyətinin haqlı narazılığına və etirazına səbəb olan bu cür addımlar - illeqal xarakter daşıyan bu səfər ilk növbədə beynəlxalq hüquq normaları və prinsiplərinə uyğun deyil. Digər tərəfdən, yuxarıda da vurğuladığımız kimi ölkəmizin qanunlarına zidd olan bu hal Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində yaratdığı qondarma rejimin təşviqinə xidmət edir.

Ümumiyyətlə, belə hallar bütövlükdə milli dövlətlərin ərazi bütövlüyü və suverenliyinin heçə sayılması, beynəlxalq qanunvericiliyin tələblərinin pozulmasıdır. Belə qəbuledilməz hallar həmçinin mənfi presedentlərin meydana çıxmasına rəvac verir. Bu isə regional və beynəlxalq təhlükəsizliyə ciddi təhdidlər yaradır. Dünya ictimaiyyətinə məlumdur ki, müasir dövrdə regional və beynəlxalq təhlükəsizliyə ciddi təhdidlər yaradan dağıdıcı - destruktiv faktorlar sırasında separatizm və təcavüzkar siyasət xüsusi yer tutur. Ona görə də dünyada separatizmə qarşı vahid münasibət formalaşdırılmalı, bu məsələ ilə bağlı ikili standartlara yol verilməməlidir. Həm ayrı-ayrı ölkələrin, həm də bəzi beynəlxalq təşkilatların ikili standartlar siyasətinə son qoyaraq separatçı rejimlərlə hər cür əlaqələri kəsməsi, eləcə də onları dəstəkləməsini dayandırması mütləq zərurətdir.

Beləliklə, Belçika parlamentinin üzvünün Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfəri qəbuledilməzdir. Bu cür səfərlər separatizmin dəstəklənməsinə xidmət edir.

**NURLAN**

# Region dövlətləri və beynəlxalq ictimaiyyət Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir

*İşğalçı siyasətini davam etdirən Ermənistanın isə regionda təcrid vəziyyəti dərinləşir, təcavüzkar ölkə bütün diplomatik cəbhələrdə uduzmaqda davam edir*




Məlum olduğu kimi, Azərbaycanın xarici siyasət kursunun strateji prioritetlərindən birini Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında, yəni ölkəmizin ərazi bütövlüyü çərçivəsində həlli təşkil edir. Azərbaycan bu istiqamətdə qətiyyətli mövqeyini və çoxşaxəli fəaliyyətini davam etdirir. Şübhəsiz ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında öz həllini tapmalıdır. Çünki Dağlıq Qarabağ həm tarixi, həm də məhz hüquqi baxımdan Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Azərbaycan dövləti bütün diplomatik imkanlardan və beynəlxalq tribunalardan istifadə edərək Dağlıq Qarabağ münaqişəsinin həllinin zəruriliyini daim diqqətə çatdırır. Bütün bunların qanunauyğun nəticəsidir ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə əlaqədar beynəlxalq ictimaiyyət Azərbaycanın ədalətli və haqlı mövqeyini dəstəkləyir. Başqa sözlə, beynəlxalq ictimaiyyət tərəfindən son zamanlar müxtəlif səviyyələrdə səsləndirilən bəyanatlar, qəbul edilmiş sənədlər Azərbaycanın haqlı və ədalətli mövqeyinin dəstəklənməsinin və daha da güclənməsinin növbəti göstəricisidir. Bu kontekstdə bir sıra məqamlara nəzər salmaq məqsədəmüvafiqdir.

Bəlli olduğu kimi, 30 oktyabr tarixində İstanbulda keçirilən Azərbaycan, Türkiyə və İran xarici işlər nazirlərinin altıncı üçtərəfli görüşünün nəticəsi kimi İstanbul bəyannaməsi qəbul edilib. Üç ölkənin xarici işlər nazirləri tərəfindən imzalanmış bəyannamədə beynəlxalq hüququn prinsipləri, xüsusilə də suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığına hörmət və dəstək, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin bu prinsiplər əsasında həllinə dair qəti və prinsipial mövqe bir daha ifadə olunub. Bundan bir gün əvvəl İstanbulda keçirilmiş Azərbaycan, Türkiyə və Gürcüstan xarici işlər nazirlərinin üçtərəfli görüşünün nəticəsi olaraq qəbul edilmiş yekun bəyanatda da dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına qarşılıqlı hörmət və qəti dəstək bir daha bəyan edilib, tərəflər fiziki və hüquqi şəxslərin fəaliyyətlərinin bu prinsiplərlə tam uyğun olmasına dair razılıqlarını ifadə ediblər. Bəhs olunan bəyanatda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında, həmçinin BMT, ATƏT və Avropa Şurasının müvafiq qətnamələri, bəyanatları və qərarlarına uyğun olaraq həllinə nail olmağın əhəmiyyəti vurğulanıb, bütün qaçqın və məcburi köçkünlərin doğma yurd-yuvalarına təhlükəsiz və ləyaqətli qayıdışının zəruriliyi bildirilib. Şübhəsiz ki, bu bəyanatlarda region dövlətləri, xüsusilə İran tərəfindən açıq-aşkar Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə dəstək ifadə olunması və münaqişənin məhz bu prinsiplər əsasında həllinə çağırış edilməsi mühüm əhəmiyyətə malikdir.

Xatırladaq ki, bundan əvvəl ABŞ-ın Ermənistandakı səfiri Riçard Mills Ermənistan-Azərbaycan münaqişəsinin həll edilməsi üçün Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmalı olduğunu bildirmişdi. ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Bolton isə bu ölkədə olan zaman sanki Azərbaycanın mövqeyini təkrarladı. Realist siyasətçi olan Con Bolton bildirdi ki, əgər Ermənistan dayanıqlı inkişafa nail olmaq istəyirsə, qonşu dövlətlərlə normal münasibətlər qurmağı bacarmalıdır. Yəni Ermənistanın çıxış yolu bundan ibarətdir. Əlbəttə, bütün bunlar region dövlətlərinin və beynəlxalq ictimaiyyətin Azərbaycanın haqlı və ədalətli mövqeyini dəstəkləməsinin bariz nümunəsidir.

İşğalçı siyasətini davam etdirən Ermənistanın isə regionda təcrid vəziyyəti dərinləşir, təcavüzkar ölkə bütün diplomatik cəbhələrdə uduzmaqda davam edir. Bəllidir ki, təcavüzkar ölkə yürütdüyü destruktiv siyasət nəticəsində qonşu dövlətlərlə və beynəlxalq ictimaiyyətlə münasibətlərdə hərtərəfli gərginliyə malikdir. Bunun nəticəsidir ki, Ermənistanın qonşu və region dövlətləri, o cümlədən aparıcı dövlətlər və güc mərkəzləri ilə münasibətləri iflasa uğrayıb. Bu kontekstdə bir sıra nüanslara nəzər yetirək. Əvvəla, Ermənistanın iddialarına baxmayaraq, Rusiya Paşinyan rejiminə inanmır. Tərəflər arasında münasibətlərdə həm gərginlik, həm də etimadsızlığın hökm sürməsi reallıqdır. Avropa İttifaqının (Aİ) isə Nikol Paşinyanı ciddi siyasətçi kimi qəbul etmədiyi aşkardır. Ona görə də Aİ daha çox gözləmə mövqeyi tutmaqdadır. 2017-ci ildə Serj Sarkisyanın hakimiyyəti dövründə Aİ Ermənistanda seçkilərin keçirilməsi üçün 7 milyon avro ayırdığı halda, Paşinyana ianə olaraq ayrılan məbləğ cəmi 3 milyon avro həcmindədir. Bu ilin yayında Paşinyanın Brüsseldə olan zaman Avropa İttifaqından əvəzsiz yardım formasında bir milyard avro tələb etməsi hələ də Aİ kuluarlarında gülüş obyektidir.

Nəticə etibarilə, Ermənistanın indiki rəhbərliyi regional və beynəlxalq reallığı düzgün dərk edib nəticə çıxarmalıdır. Əks halda, işğalçı ölkənin iflası və təcrid vəziyyəti daha da dərinləşəcək. Bu ölkənin siyasi, iqtisadi, sosial, demoqrafik və diplomatik böhrandan çıxmasının yeganə yolu işğal siyasətinə son qoyması, Azərbaycanın işğal olunmuş ərazilərindən öz qoşunlarını çıxarması və qonşu dövlətlərlə sivil əsaslarla münasibət qurmasıdır.

**N.QƏLƏNDƏRLİ**

# Ermənistanda siyasi böhran pik həddə çatıb

*Ekspertlər növbədənkənar parlament seçkilərinin də işğalçı ölkədəki acınacaqlı duruma müsbət təsir etməyəcəyini düşünürlər*



Ermənistanda neçə aydır davam edən siyasi böhranın ən yüksək həddində olan hakimiyyətsizlik mühiti özünün yeni mərhələsinə qədəm qoyub. Belə ki, noyabrın 1-də parlamentdə baş nazir seçilməməsi qanunverici orqanın buraxılmasının yolunu açıb. Konstitusiyaya əsasən, iki dəfə baş naziri seçə və hökuməti formalaşdıra bilmədiyi üçün parlamentin səlahiyyətləri prezident A.Sarkisyan tərəfindən ləğv edilib və dekabr ayının 9-na növbədənkənar parlament seçkiləri təyin olunub. Son nəticə baş nazir səlahiyyətlərini icra edən N.Paşinyanın planına uyğun olsa da, ekspertlər bunun ümumən Ermənistandakı vəziyyətə müsbət təsir etməyəcəyini düşünürlər.

Birinci səbəb odur ki, parlamentdə çoxluğa malik olan respublikaçıların müqaviməti nəticəsində Seçki Məcəlləsində Venesiya Komissiyasının tövsiyələrini də nəzərdə tutan dəyişikliklər paketinin qəbul olunmaması N.Paşinyanın Avropadakı dəstəkçiləri qarşısında götürdüyü öhdəlikləri yerinə yetirməməsinə gətirib çıxarıb. Nəticədə N.Paşinyan "reytinq sistemi" adlanan sistemin mövcud olduğu köhnə məcəllə ilə seçkilərə getməli olub. Dəyişikliklər isə məcəllədə tam proporsional sistemin tətbiqini nəzərdə tuturdu. Bununla belə, ehtimal olunur ki, yeni parlamentin legitimliyinin əsasını seçki nəticəsi deyil, Nikol Paşinyanın istəkləri müəyyən edə bilər. Çünki mövcud Seçki Məcəlləsi ilə keçiriləcək seçkilərdə, demək olar ki, bütün parlamentdənkənar siyasi qüvvələr qanunverici orqanda təmsil olunmaq imkanından məhrum olacaq.

Yuxarıda qeyd olunanları nəzərə alan N.Paşinyanın növbədənkənar seçkilərə qədər bu dəyişikliklərin parlamentdən keçirilməsində maraqlı olmaması ehtimalları Avropa İttifaqının da bu seçkilərə bir qədər tərəddüdlə yanaşmasına səbəb olub. Belə ki, ötən ayın ortalarında Avropa İttifaqının xarici fəaliyyət xidmətinin yüksəkvəzifəli rəsmisi T.M.Hartinq və Aİ-nin yardımlarının əlaqələndiricisi V.Maraqosun Ermənistana səfərindən sonra Avropa İttifaqı işğalçı dövlətdə növbədənkənar parlament seçkilərinin şəffaf və beynəlxalq standartlara uyğun keçirilməsi məqsədilə 3 milyon avro məbləğində vəsait ayrılması barədə qərar qəbul edib. Halbuki artıq tarixə qovuşmuş indiki parlamentin formalaşdığı 2017-ci ilin aprelində keçirilmiş parlament seçkilərinin təşkili üçün Avropa İttifaqı 7 milyon avro ayırmışdı. Lakin beynəlxalq müşahidə missiyasının hesabatına əsasən, seçki prosesində ciddi qanun pozuntuları və saxtakarlıqlara yol verilməsi faktlarının üzə çıxması bu nüfuzlu beynəlxalq qurumu çətin vəziyyətə salıb. Belə ki, Avropa İttifaqı xeyli pul xərclədiyi Ermənistandakı seçki prosesinin qeyri-demokratik şəkildə keçirilməsindən məyus olub. Həmin parlamentə üzv seçilən Nikol Paşinyan özü də hakimiyyəti ələ keçirən kimi seçkilərin antidemokratik şəraitdə keçirildiyini bəyan edərək həmin parlamentin legitim olmadığını bildirib.

Görünən odur ki, küçə psixologiyasından əl çəkməyərək hər dəfə ziddiyyətli və təzadlı açıqlamalar verən N.Paşinyan Avropada da ciddi qarşılanmır. N.Paşinyana münasibət o qədər aşağı səviyyədədir ki, onun planlaşdırdığı seçkilərə kriminal oliqarxiyaya arxalanan, işğalçı hərbi xunta rejiminin başında duran Serj Sarkisyanın keçirdiyi seçkilərdən iki dəfədən də az pul ayrılır. Bu, ondan xəbər verir ki, hakimiyyətə gələn kimi özünü qərbyönümlü kimi təqdim edərək Avropadan pul dilənməyə çalışan N.Paşinyanın cəhdləri uğursuzluqla nəticələnib.

Ümumi qənaət odur ki, Avropa İttifaqı rəsmiləri açıq şəkildə N.Paşinyanın perspektivinə o qədər də önəm vermirlər. Ekspertlərin fikrincə, bu inamsızlıq son dövrlər baş nazirin səlahiyyətlərini icra edən N.Paşinyanın xaos və böhranın hökm sürdüyü Ermənistandakı sosial-iqtisadi və siyasi vəziyyəti stabilləşdirmək əvəzinə, yeni diktatura rejimi yaratmaq cəhdlərindən qaynaqlanır. Ən nəhayət, cəmi 6 ay bəs elədi ki, N.Paşinyanın və onun hər ay istefalarla böhran vəziyyəti yaradan hibrid hökumətinin yarıtmaz siyasəti bütün dünyaya, o cümlədən Avropaya aydın olsun.

**Qaşqay ZİYƏDDİNOĞLU**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

# Gəncə-Qazax iqtisadi rayonu üzrə abadlıq-quruculuq işləri uğurla davam etdirilir

*Həyata keçirilən yeni layihələr sayəsində iqtisadi rayona daxil olan Daşkəsən şəhərinin 90,7 faizi fasiləsiz rejimdə ekoloji cəhətdən təmiz içməli su ilə təmin olunub*




Son illərdə Azərbaycanın bütün bölgələrində müasir infrastruktur obyektlərinin yaradılması, abadlıq-quruculuq işləri geniş vüsət alıb. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində ölkə miqyasında bəhs olunan istiqamətlərdə yeni layihələr reallaşdırılır. Nəticədə, paytaxt Bakı, digər iri şəhərlərlə yanaşı, bölgələrin də elektrik enerjisi, "mavi yanacaq", içməli su təminatı əhəmiyyətli dərəcədə yaxşılaşıb. Regionlarda magistral, eləcə də kənd və qəsəbələri birləşdirən yolların yüksək səviyyədə yenidən qurulması, yeni səhiyyə, təhsil müəssisələrinin istifadəyə verilməsi, genişmiqyaslı quruculuq-abadlıq işlərinin həyata keçirilməsi insanlarda böyük məmnunluq hissi yaradır.

Ölkə üzrə infrastrukturun yenilənməsi, abadlıq-quruculuq işləri bu ilin 9 ayında da uğurla davam etdirilib. Yeri gəlmişkən, Gəncə-Qazax iqtisadi rayonuna daxil olan bölgələrdə əldə olunmuş nəticələr bunu təsdiqləyir.

Bu ilin 9 ayında Gəncə-Qazax iqtisadi rayonuna daxil olan Daşkəsən rayonunda da tikinti, təmir-bərpa, yenidənqurma, abadlıq-quruculuq işləri uğurla davam etdirilib. Azərbaycan Hökuməti ilə İslam İnkişaf Bankı tərəfindən maliyyələşən "Daşkəsən şəhərinin su və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinin həyata keçirilməsində son tamamlama işləri yerinə yetirilir. Artıq Daşkəsən şəhərinin çox hissəsi (90,7%) ekoloji cəhətdən təmiz və fasiləsiz olaraq içməli su ilə təmin olunur. Bundan başqa, rayonun Xoşbulaq kənd həkim məntəqəsində təmir işləri aparılıb. Güneykənd kənd tam və Şahvələdli kənd ümumi orta məktəblərində yeni modul tipli məktəb binalarının quraşdırılmasında isə son tamamlama işləri aparılır. Eyni zamanda, Daşkəsən qəsəbə, Almalı və Gurbulaq kənd ümumi orta məktəblərində modul tipli məktəb binalarının quraşdırılması işləri davam etdirilir. Bu ilin sentyabrından isə Mərkəzləşdirilmiş Kitabxana Sistemində cari təmir işlərinə başlanılıb.

Cari ilin hesabat dövründə Daşkəsən şəhərində 7 çoxmərtəbəli yaşayış binasının təmiri, eyni zamanda, Daşkəsən şəhərində tikinti-təmir, abadlıq işləri, o cümlədən istinad divarlarının təmir işlərinə başlanılıb və hazırda həmin işlər davam etdirilir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişi əsasında Daşkəsən şəhərində, Daşkəsən qəsəbəsində və Qabaqtəpə və Dəvrallı kəndlərində Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 4 fərdi yaşayış evinin və Fövqəladə Hallar Nazirliyinin xətti ilə Alunitdağ və Yuxarı Daşkəsən qəsəbələrində və Quşçu kəndində evləri qəza vəziyyətində olan vətəndaşlar üçün 3 fərdi yaşayış evinin tikintisinə başlanılıb.

Adıçəkilən iqtisadi regiona daxil olan Goranboy rayonunda da bu ilin 9 ayında tikinti-abadlıq və quruculuq işləri davam etdirilib. Belə ki, rayonda müasir memarlıq üslubunda Bayraq Muzeyi tikilib, 72 metr hündürlüyündə Dövlət Bayrağı ucaldılıb. Bayraq Meydanında 930 kv.metr tamet düzülüb, yeni gül kolları əkilib, yaşıllıq salınıb, ərazidə 18 ədəd yeni işıqlandırma dirəyi quraşdırılıb. Eləcə də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin inzibati binasında tikinti işləri sona çatmaq üzrədir.

Digər tərəfdən, Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə ayrılmış vəsait hesabına rayon Mərkəzi Xəstəxanası üçün 130 çarpayılıq müasir xəstəxana binasında son tamamlama işləri aparılır. Xəstəxananın müasir tibbi aparatlarla və avadanlıqlarla təmin edilməsi də nəzərdə tutulur. Eyni zamanda, ölkə Prezidentinin tapşırığı ilə rayonda Olimpiya İdman Kompleksinin tikintisi üçün 3 milyon manat vəsait ayrılıb, hazırda tikinti aparılır.

Bununla yanaşı, rayonun şəhər və qəsəbələrində yaşayış binalarının müasir görkəmə salınması istiqamətində uğurlu fəaliyyət nümayiş etdirilir. Goranboy şəhəri M.Məhərrəmov küçəsi 22 saylı yaşayış binasının dam örtüyü, fasad və həyətyanı sahələrində təmir işləri görülür, binanın taxta pəncərə bloklarının plastik pəncərə blokları ilə dəyişdirilməsi, fasad hissəsinin yenidən rənglənməsi nəzərdə tutulur. Goran qəsəbəsi 2, 4, 6 saylı binaların fasad hissələri suvanıb, dam örtükləri dəyişdirilib, həyətlərə səki yan daşları düzülüb. Eyni zamanda, Dəliməmmədli şəhərində 20-dək kommunal evlərin dam örtükləri dəyişdirilib, fasad hissələri təmir edilərək rənglənib.

Goranboy şəhərinin İsmət Qayıbov, Səməd Vurğun, İlham İsmayılov, Səlahəddin Civəzadə küçələrində 2500 metr səki yan daşları düzülüb, yaşıllıq zolaqlarına torpaq qatı verilib. Vüqar Bayramov küçəsi və Heydər Əliyev prospektində 1200 kv.metr səki bərpa edilib. Hazırda Heydər Əliyev prospektində yeni səki daşları düzülür, yaşıllıq zolağı salınır. Bundan başqa, Vüqar Bayramov və Rövşən Mustafayev küçələrində hasarlara vurulmuş aqlay tavalar bərpa edilib. Səlahəddin Civəzadə küçəsində səkilərə asfalt örtük salınıb. Şəhər mərkəzində yerləşən Heydər Bulağının ərazisində təmir işləri aparılıb.

Goran istiqamətindən şəhərə giriş hissədə İrəvanlı kəndi ərazisində 1600 kv.metr hasar təmir edilib, rənglənib. Şəhərin mənzərələrini əks etdirən fotolar yeniləri ilə əvəz edilmişdir. Heydər Əliyev adına Mədəniyyət və istirahət parkında fontanlar təmir olunub. Rövşən Mustafayev və Cəfər Cabbarlı küçələrində 3200 kv.metr hasarda təmir işləri aparılıb, yöndəmsiz darvazalar rənglənib. Eləcə də C.Cabbarlı küçəsində hasara dekorativ daşlarla üzlük vurulur. Vurğulamaq gərəkdir ki, küçələrdə 1000 ədəd yeni dekorativ ağac və gül kolları əkilib. Şəhərin Mirqalib Nağıyev, Məmməd Məhərrəmov, Cəfər Cabbarlı, Nizami, Nəriman Nərimanov küçələrinə asfalt-beton örtük salınıb.

Rayonun yaşayış məntəqələrində də abadlıq-quruculuq işləri diqqətdə saxlanılıb. Dağlıq ərazidə yerləşən Rus Borisi, Todan, Mənəşli və Erkəc kəndlərinə gedən yol cari təmir edilib, bu kəndlərə gedən yola asfalt örtük salınması, sonuncu üç kəndin qazlaşdırılması üçün aidiyyəti üzrə müraciətlər edilib. Eləcə də Xoylu kənd tam orta məktəbin əlavə korpusu əsaslı təmir edilib. Səfikürd və Balakürd kəndlərində mini stadionlar quraşdırılıb.

Gəncə-Qazax iqtisadi rayonuna daxil olan Göygöl rayonunda da bu ilin 9 ayında təmir-tikinti, yenidənqurma işləri davam etdirilib. Belə ki, Göygöl şəhərinin Fərman Kərimzadə küçəsində 1 və Qızılqaya qəsəbəsində yerləşən 5 çoxmənzilli binanın dam örtüyü dəyişib və həmin binalarda, o cümlədən 21-ci məhəllədə və M.Ə.Rəsulzadə küçəsində yerləşən 2 mərtəbəli binaların fasad hissələri suvanaraq rənglənib. Binaların giriş qapıları və blok pəncərələri dəyişdirilib. Dövlət Mənzil Fonduna aid olan 7 mənzil təmir olunub. Zurnabad kənd uşaq bağçasında əsaslı təmir aparılıb.

Göygöl şəhərinin Ordubadi, Mikayıl Müşfiq və İsrafil Məmmədov küçələrinə asfalt örtük salınması üçün işlərə başlanılıb, hazırda 1000 kv.m səkilərə, yol hissəsinə isə 10240 kv.m asfalt örtük salınıb, 1571 p/m suötürücü arxlar çəkilib. 3 min nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən 18 km uzunluğunda Bakı-Qazax magistral avtomobil yolunun 353 km-dən - Çaylı-Pənahlılar-Dozular kəndarası avtomobil yolunda əsaslı təmir işləri aparılaraq yola asfalt örtük salınıb.

Əhalinin təbii qaz təchizatını yaxşılaşdırmaq məqsədilə hesabat dövründə 90 ədəd qaz tənzimləyici şkaflar və 245 ədəd siyirtmələr əsaslı təmir edilib. Rayonun Şəhriyar və Kərəmli kəndlərinə yeni qaz xətləri çəkilərək abonentlər təbii qazla təmin edilib, Qızılca, Yeni Qızılca, Sərkar, Haçaqaya kəndləri və Bəhrəmbağ qəsəbəsində isə işlər tamamlanmaq üzrədir. Çaykənd kəndində ümumilikdə 20900 p/m qaz xətti çəkilib və hazırda işlər davam etdirilir.

Gəncə-Qazax iqtisadi rayonunun Samux rayonunda isə Burunqovaq kəndində inşa edilmiş modul tipli məktəb binasının tikintisi başa çatdırılaraq istifadəyə verilib. Samux şəhərinin Heydər Əliyev və Kolayır prospektlərində, Nəriman Nərimanov, Elçin Məmmədov, Arif Nəbiyev küçələrində, Kür yolunda aparılan yenidənqurma və bərpa işləri başa çatdırılıb. Yararsız bort daşları və tavalar sökülərək yenilənib, keyfiyyətsiz hasarlar yenidən hörülüb, suvaq və rəngləmə işləri həyata keçirilib. Heydər Əliyev prospektində və Arif Nəbiyev küçəsində hasarların aqlay tava daşları ilə üzlənməsi və bərpa işləri aparılıb. Kolayır prospektində 54, Elçin Məmmədov küçəsində 27, Kür küçəsində 27, Nəriman Nərimanov küçəsində 8 ədəd olmaqla, ümumilikdə 116 ədəd, eyni zamanda, Qarayeri qəsəbəsində 14 ədəd müasir işıqlandırıcı quraşdırılıb və abadlıq işləri həyata keçirilib. Şəhərin Heydər Əliyev prospektinin 300 metrlik hissəsi, Göygöl, Qalalı küçələrində əsaslı təmir işləri aparılıb. Misginli küçəsində isə yenidənqurma işlərinə başlanıb, 6 ədəd dəmir boru ilə su keçidi quraşdırılıb, küçəyə balans verilərək hamarlanıb. İsmət Qayıbov küçəsində yerləşən Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün inşa edilmiş 8 mənzilli binanın ətrafında abadlıq işləri aparılıb.

Qarayeri qəsəbəsində ümumi sahəsi 1,5 hektar olan istirahət parkında təmir-bərpa işlərinə başlanıb. Parkın ətrafında 390 metr uzunluğunda hasarlama işləri aparılıb, gəzinti yollarının kənarına 450 p.metr bardür düzülüb, 500 kv.m üzlük daşları döşənib. Parkda 2 ədəd fəvvarə quraşdırılıb.

Rayonun Çobanabdallı kəndində yataqxana tipli, ikimərtəbəli birbloklu, hər biri 16 mənzilli, ümumi sahəsi 2020 kv.m olan iki binada blokların təmiri, qapı və pəncərələrin quraşdırılması işləri tam başa çatdırılıb, hər iki binada son tamamlama işləri həyata keçirilir. İstixana kəndində ikimərtəbəli, ikibloklu, hər biri 12 mənzilli, sahələri 1445 kv.m olan iki binada isə təmir-bərpa işlərinə başlanıb.

**Pərviz SADAYOĞLU**

# Beynəlxalq Əlillər Günü ilə əlaqədar müsabiqə elan olunub

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu (KİVDF) və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi 3 dekabr-Beynəlxalq Əlillər Günü ilə əlaqədar "Əlilliyi olan şəxslər: fiziki məhdudiyyətdən sosial inteqrasiyaya" mövzusunda fərdi jurnalist yazıları müsabiqəsi keçirir.

KİVDF-dən AZƏRTAC-a bildiriblər ki, müsabiqənin məqsədi Prezident İlham Əliyevin uğurlu sosial siyasətinin mühüm tərkib hissəsi kimi, ölkəmizdə əlilliyi olan şəxslərin hüquqlarının təminatı, onların sosial müdafiəsi, tibbi-sosial reabilitasiyası, cəmiyyətə fəal inteqrasiyası və digər istiqamətlərdə aparılan işlər barədə geniş ictimai məlumatlandırmanın təmin olunmasında peşəkar jurnalist əməyinin stimullaşdırılmasıdır.

Müsabiqə elan olunan günədək ən azı bir il müddətində kütləvi informasiya vasitələrində (qəzet, jurnal, informasiya agentliyi və rəsmi qeydiyyatdan keçmiş internet media resurslarında) fasiləsiz çalışan şəxslər müsabiqədə iştirak edə bilərlər.

Müsabiqədə iştirak etmək üçün dərc olunmuş yazıların sərlövhələri təklif olunan mövzu ilə eyni olmalıdır. Hər jurnalist yalnız bir yazı təqdim edə bilər. Qəzet və jurnallarda çalışan jurnalistlərin yazıları çalışdıqları mətbuat orqanlarında dərc olunmalıdır. Yazı son bir ildə, həftədə bir dəfədən az olmayaraq nəşr edilən, Azərbaycan Mətbuat Şurasının tərtib etdiyi "qara siyahı" ya düşməyən mətbuat orqanlarında dərc edilməlidir.

Azərbaycan jurnalistlərinin I qurultayında qəbul olunmuş jurnalistlərin peşə (etik) davranış qaydalarını pozması ilə əlaqədar haqqında Mətbuat Şurası tərəfindən müvafiq qərar çıxarılan, şuranın tərtib etdiyi "qara siyahı"ya düşən, bir il müddətində "qara siyahı"dan çıxarılan və altı ay müddətində xəbərdarlıq almış qəzetlərdə dərc olunan yazılar müsabiqəyə qəbul edilmir.

Qəzetdə dərc olunmuş yazıda "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün" qeydi göstərilməlidir.

Müsabiqəyə yazının dərc olunduğu 1 nüsxə mətbuat orqanı (qəzet), 1 nüsxə yazının elektron variantı (Times New Roman (12) şriftində -CD diskdə, 3 nüsxə A4 formatda müəllifin imzası göstərilməməklə çap olunmuş variantı təqdim edilməlidir. Yazıların həcmi bir səhifə (A3) olmalıdır (9-11 min işarə).

Müəlliflərin əmək kitabçasının işlədiyi KİV tərəfindən təsdiq edilmiş surəti (möhür və baş redaktorun imzası), iştirakçı haqqında məlumat cədvəli (möhür, müəllif və baş redaktorun imzası ilə), şəxsiyyət vəsiqəsi və surəti, şəxsi VÖEN və surəti, şəxsi bank rekvizitləri (şəxsi VÖEN əsasında açılmış bank hesabı. Hesabın aktiv olması təsdiqlənməlidir) tələb olunur.

İştirakçı haqqında məlumat cədvəlini əldə etmək üçün fonda müraciət etmək olar. Tələb olunan sənədlər tam olmadığı və ya həqiqəti əks etdirmədiyi hallarda yazı müsabiqəyə buraxılmır. Fonda təqdim edilmiş yazılar və sənədlər geri qaytarılmır.

Yazılar noyabrın 2-dən 27-dək, rəsmi iş günləri saat 10:00-dan 16:00-dək, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna şəxsən təqdim olunmalıdır.

Dərc olunan mövzunun əhatə olunması, jurnalist araşdırması, əsaslandırma, materialın oxucu üçün informasiyalılıq səviyyəsi, yazının dil və üslub xüsusiyyətləri, bədii-estetik ifadəsi, jurnalist obyektivliyi, qərəzsizliyi, tərəfsizliyi və məsuliyyəti və ictimai maraqların müdafiəsi qiymətləndirmə zamanı əsas meyarlar olacaqdır.

Müsabiqədə I yer (1 nəfər), II yer (2 nəfər) və III yerin (3 nəfər) sahibləri müvafiq olaraq, 1000, 800 və 500 manat məbləğində pulla mükafatlandırılacaqlar.

Bundan başqa, beş yazı müəllifinə hər biri 200 manat olmaqla həvəsləndirici mükafatlar veriləcək.

Qaliblər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və KİVDF-nin xüsusi diplomu ilə təltif olunacaqlar.

# "Nar" korporativ müştərilərinə xüsusi təkliflər təqdim edir

Ölkənin ən gənc və innovativ mobil operatoru "Nar" korporativ müştərilərinin sayını ildən-ilə artırır. Ötən ilin müvafiq dövrü ilə müqayisədə mobil operatorun korporativ müştərilərinin sayı 150% artıb.

"Nar" korporativ müştəriləri üçün yeni təklifləri təqdim edir. İndi "Nar"ın korporativ müştərisi olmaqla biznes sahibləri sərfəli şərtlərlə smartfon, 4G data modem və portativ internet daşıyıcısı əldə edə bilər. Korporativ tariflərdən birini seçməklə müştərilər sərfəli qiymətə yeni model smartfon əldə edə biləcəklər. Smartfonu əldə etmək üçün 1 "Nar" nömrəsinin korporativ tarifdə olması kifayətdir.

İnternetdən daimi istifadə edən iş adamları "Nar"ın pulsuz 4G data modem və data nömrələrini əldə edə və 1 il müddətində xüsusi endirimlə aylıq 20 GB mobil internetdən yararlana bilərlər.

"Nar"ın portativ internet daşıyıcısı isə daimi ofisdən istifadə etməyən şirkətlər üçün cəlbedici təklifdir. Belə ki, "WTTx" cihazı ("Wireless To The x", tərc.: X nöqtəsilə naqilsiz əlaqə) vasitəsilə eyni anda 32 cihaz "Nar" şəbəkəsinə qoşularaq internetdən istifadə edə bilər. "Nar" korporativ müştərisi olmaqla, sahibkarlar öz biznes tələblərinə ən uyğun olan təkliflərdən yararlanmaqla yanaşı, keyfiyyətli rabitə və sərfəli qiymətlərdən faydalana bilərlər.

Korporativ təkliflər həm yeni qoşulan, həm də mövcud korporativ müştərilər üçün nəzərdə tutulub. Təklifə qoşulmaq, həmçinin əlavə məlumat almaq üçün "Nar" nömrələrindən 777 qısa nömrəsinə zəng edə və ya business-nar@azerfon.az elektron poçtuna yaza bilərsiniz.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 7000-dən artıq baza stansiyası ilə 2,1 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub.

# Azərbaycanın ilk Müştəri Dəstək Xətti - 20 il

*"Azercell"in 24/7 rejimində fəaliyyət göstərən peşəkar Telefon Mərkəzi yubileyini qeyd edir*

Bu gün Azərbaycanda ilk peşəkar xidmət sahəsinin - Telefon Mərkəzinin - yaranmasından 20 il ötür və bu mühüm hadisə "Azercell Telekom"un adı ilə bağlıdır. Belə ki, "Azercell Telekom" MMC 1998-ci il noyabrın 1-də ölkəmizdə ilk dəfə olaraq 24/7 rejimində fəaliyyət göstərən Telefon Mərkəzini istifadəyə verib, 2009-cu ildə isə Gəncədə ilk Regional Telefon Mərkəzini yaradıb.

Müasir dövrdə hər hansı bir iri şirkəti telefon müştəri xidməti olmadan təsəvvür etmək mümkün deyil. 20 ildir ki, "Azercell"in Telefon Mərkəzinin vasitəsilə abunəçilər günün istənilən saatında şirkətlə əlaqə saxlayaraq müxtəlif əməliyyatları həyata keçirir, istənilən məsələlərlə bağlı məlumat əldə edir və texniki dəstək alırlar. Lakin bu gün 20 illiyini qeyd edən qrup bu illər ərzində inkişaf yolu keçib və şaxələnərək Müştəri Dəstək Xətti, Online Chat, Sosial Media ve Premium Dəstək Xətti olaraq müştərilərə müxtəlif növlü xidmətlər göstərir. Qeyd edək ki, 20 il ərzində Telefon Mərkəzi tərəfindən 50 milyondan artıq abunəçi müraciəti qəbul olunub. Azərbaycan telekommunikasiya bazarında liderliyini qoruyan, daim texnoloji yenilikləri tətbiq edən, bütün müasir xidmətləri abunəçiləri üçün mümkün edən "Azercell Telekom" MMC zamanın tələblərinə uyğun olaraq Müştəri Dəstək Xəttinin xidmət kanalları və növlərini hələ çox müasirləşdirmək və genişləndirmək niyyətindədir. Bununla da, müştəriyə xidmət mərkəzi bir virtual katib kimi müştərilərlə aktiv ünsiyyətdə olaraq, müraciətlərin daha da sürətli və rahat həllinə köməklik göstərəcək.

Hər gün, hər saat, hər dəqiqə müştərilərin zənginə cavab verən "Azercell" Telefon Mərkəzi peşəkar komandadan ibarətdir. Bunu müştərilər arasında aparılan sorğular, qiymətləndirmə təşkilatlarının keçirdiyi araşdırmalar da təsdiq edir. Belə ki, 2018-ci ilin ilk 6 ayının nəticələrinə görə respondentlərin 93%-i Telefon Mərkəzinin təqdim etdiyi xidmətlərdən razılığını bildirib. Bu zaman zəngə cavab verilməsi müddəti, operatorun müştəri ilə davranış tərzi, məlumatın qəbul edilməsi, problemlərin dərhal həll olunması kimi amillər də nəzərə alınıb.

"Azercell" 4,5 milyonluq abunəçi ailəsininin müraciətlərini araşdırıb həll edərkən ilk növbədə məxfilik, düzgünlük, tərəfsizlik, operativlik və rahatlıq prinsiplərinə əsaslanır. Fəaliyyətə başladığı gündən müştəri məmnuniyyətinin artırılmasını hədəfləyən şirkət abunəçiləri tərəfindən irəli sürülən bütün təklif və şərhləri diqqətlə araşdırır. "Azercell" Müştəri Xidmətləri və Telefon Mərkəzinin fəaliyyəti və keyfiyyəti mütəmadi olaraq beynəlxalq audit şirkətləri tərəfindən dəyərləndirilir və sertifikatlaşdırılır. Qeyd edək ki, "Azercell"in Telefon Mərkəzi 2011-ci ildə EN 15838:2009 və 2018-ci ildə ISO18295 beynəlxalq keyfiyyət sertifikatlarına layiq görülüb. Şirkət əməkdaşlarının Sosial Media üzərindən göstərdiyi xidmət də yüksək qiymət alıb - son 4 il ərzində dəfələrlə Facebook üzərindən xidmət səviyyəsinə görə beynəlxalq "Social Bakers" şirkətinin "100% Socially Devoted" sertifikatına layiq görülüb. Bu da şirkətin keyfiyyətli idarəetmə sisteminin öz fəaliyyətində tətbiqi, abunəçilərlə aparılan işin yüksək səviyyədə təşkilinin göstəricisidir.




Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: **67100**
Lisenziya: **N-B-317**
**Tiraj: 6074**
"Kapital Bank"ın Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

İnformasiya mənbələrimiz:
"AZƏRTAC",
"Azadinform", "SİA"
Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
**Buraxılışa məsul**:
Zahid İLHAMOĞLU